## Zakir Həsənov əmr imzalayıb

Hərbi Dəniz Qüvvələrinin komandanı vəzifəsi Şahin Məmmədova tapşırıldı



**Azərbaycan Hərbi Dəniz Qüvvələrinə komandanı vəzifəsinə təyin edilib.**

Bu barədə müdafiə naziri, general-polkovnik Zakir Həsənov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, bu vəzifənin müvəqqəti icrası 1-ci dərəcəli kapitan Şahin Məmmədova tapşırılıb.

*Qeyd edək ki, 2014-cü il martın 31-də müdafiə nazirinin əmrinə əsasən, Azərbaycan Hərbi Dəniz Qüvvələri Komandanı vəzifəsinin icrası Şahin Məmmədova tapşırılıb. O, 2016-cı il martın 29-na qədər bu vəzifəni icra edib.*



## Quru sərhədləri açılsa...

Bakı-Tbilisi-Bakı reysi bərpa ediləcək

**"Azərbaycanın quru sərhədləri açılsa, "Azərbaycan Dəmir Yolları" (ADY) QSC Bakı-Tbilisi-Bakı reysini bərpa edəcək".**

Bunu jurnalistlərə açıqlamasında ADY-nin Sərnişindaşımaları departamentinin rəisi Azər Fərəcov bildirib.

"Yalnız sərhədlər açılandan sonra ADY bununla bağlı hazırlıq işlərinə başlayacaq", - deyə o qeyd edib.


❑ № 233 (6234) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 19 dekabr 2024-cü il (cümə axşamı)





# Ələ keçdilər

Quldurluqla 127 min manat pulu ələ keçirən şəxslər həbs edildi

**Dekabrın 16-da saat 11 radələrində Sumqayıt şəhəri H.Z.Tağıyev qəsəbəsi ərazisində 2 naməlum şəxs şirkətlərdən birinə məxsus "Chevrolet" markalı avtomobili dayandıraraq sürücünü aldatmaqla ona zor tətbiq edib avtomobildə olan 127298 manat pulu talayaraq qaçıblar.**

Bu barədə Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb.

Bildirilib ki, Sumqayıt şəhərində polis əməkdaşları tərəfindən keçirilən əməliyyat tədbirləri nəticəsində pul vasaitini quldurluq yolu ilə talamaqda şübhəli bilinənlər - 38 yaşlı Ruhid Fərəcov və 36 yaşlı Samir Qasımov saxlanılıblar. Araşdırmalarla məlum olub ki, şübhəli şəxslər avtomobildə pul olmasından məlumatlı olublar.

Sumqayıt Şəhər Polis İdarəsində fakta görə Cinayət Məcəlləsinin quldurluq maddəsi ilə cinayət işi başlanılıb. R.Fərəcov və S.Qasımov barəsində həbs qətimkan tədbiri seçilib.



## Türkiyə ilə ortaq və qardaşlıq yolu

Bölgəmizdəki təhdidlərə cavab vermək hədəflərdən biridir

**Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində deyib ki, İkinci Dünya müharibəsi nəticəsində müəyyən edilmiş oyun qaydaları bu gün artıq işləmir, hətta qlobal aktorlar bunu gizlətmirlər.**

Dövlət başçısı qeyd edib ki, Türkiyə ilə hər il 10-dan çox birgə təlim keçiririk: "Yarısı Azərbaycanda, yarısı Türkiyədə və mahiyyətcə hərbi əməliyyatların yüksək dərəcədə keçirilməsinə nail oluruq. Təbii ki, bu, Qafqazda sabitliyin mühüm amilidir. Çünki bugünkü dünya və hadisələrin inkişafı bir daha sübut edir ki, dünya əsaslı şəkildə dəyişib".

(səh.3)

## Sahibə Qafarova Ankarada Ərdoğanla görüşüb



**Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Türkiyədə rəsmi səfərdədir.**

Bu barədə Milli Məclis məlumat yayıb.

Bildirilib ki, səfər çərçivəsində spiker Sahibə Qafarova Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən "2024 TÜBA və TÜBİTAK Elm Ödülləri Mərasimi"ndə iştirak edib.

Tədbirdə Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb.

# Prezidentdən xəbərdarlıq



## "Ermənistan bizimlə silah yarışında tab gətirməyəcək"

### "Belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın"

**"Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır və düşünürəm ki, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur".**

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində deyib. Dövlət başçısı vurğulayıb ki, ölkələrimiz üçün çətin vaxtlarda həmişə həm vəziyyətin dərk olunmasını nümayiş etdirmişik, həm də özümüzü dostcasına aparmışıq. Prezident bundan sonra da belə olacağına əminliyini ifadə edib: "Əlbəttə, biz iqtisadi-ticari əməkdaşlıq üçün fəal şəkildə yeni sahələr tapmağa davam edirik".

(səh.2)

# "Ev verilməli, maaşı yüksək olmalıdır"

Professor deyib ki, rayona gedən həkimlərə müəyyən üstünlüklər verilməlidir



**"Azərbaycanda fəaliyyət göstərən həkimlərin 60-70 faizi məhz paytaxtda cəmləşib".**

Bunu TƏBİB-in İcraçı direktorunun müavini Azər Nəsirov "Səhiyyə İdarəçiləri Zirvəsi - 2024" tədbirində deyib. O bildirib ki, hazırda regionlarda həkim çatışmazlığı müşahidə olunur. TƏBİB-in icraçı direktorunun müavini problemin həlli yollarından da bəhs edib. O qeyd edib ki, regionlarda bu problemi həll etmək üçün ürək mərkəzləri, onkoloji mərkəzlər yaradılıb və məqsəd səhiyyəni əhali üçün əlçatan olmaqdır.

O qeyd edib ki, bütün yaxşı, üçüncü səviyyəli səhiyyə xidmətinin Bakıda yerləşməsi fikri yanlışdır...

(səh.5)



## "Aramızda razılaşma var, əməl edirik"

Paşinyanın müavini: "Sərhədin delimitasiyası üzrə Komissiyanın iclası keçiriləcək"

**Yaxın günlərdə Ermənistan və Azərbaycan arasında sərhədin delimitasiyası üzrə Komissiyanın növbəti iclası baş tutacaq.**

Ermənistan KİV xəbər verir ki, bu barədə Ermənistanın Baş nazirinin müavini Mqer Qriqoryan jurnalistlərə deyib. O, açıqlamasında Ermənistanın Azərbaycana sülh sazişi ilə bağlı yeni təkliflər təqdim etdiyini, lakin rəsmi cavab alınmadan bu təkliflərin detalları haqqında danışmağı məqsədəuyğun hesab etmədiyini qeyd edib.

(səh.2)

## Bələdiyyə seçkilərində 263 nəfərin namizədliyi qeydə alınıb



**Bələdiyyə seçkilərində 6 min 218 nəfər namizədlik üçün müraciət edib.**

Bunu Mərkəzi Seçki Komissiyasının (MSK) dekabrın 18-də keçirilən iclasında qurumun sədri Məzahir Pənahov deyib.

O qeyd edib ki, prosesdə hələlik heç bir qanun pozuntusu qeyd alınmayıb:

"685 bələdiyyəyə üzvlər seçilir. 5 min 734 seçki məntəqəsi üzrə 5 milyon 876 mindən çox seçici səsvermədə iştirak edəcək. 263 nəfərin namizədliyi artıq qeydə alınıb".

## Generalı Qərb kəşfiyyatı öldürüb

Belə bir sui-qəsdi təşkil etmək üçün Ukraynanın imkanları məhduddur



**"Rusiya Silahlı Qüvvələrinin Radiasiya qoşunlarının rəisi İqor Kirillov və köməkçisi İlya Polikarpovun ölümü ilə nəticələnən terror aktının sifarişçiləri bizə məlumdur". Bunu jurnalistlərə Kremlin mətbuat katibi Dmitri Peskov deyib.**

O bəyan edib ki, hazırda ölkəsi həmin hadisənin sifarişçiləri ilə mübarizə aparır. Bununla yanaşı, D.Peskov baş verən hadisədə üçüncü ölkələrin əlinin olması barədə sualı cavablandırmayıb: "Hazırda istintaq gedir və mütəxəssislər kifayət qədər effektiv iş aparır.

(səh.6)



## Kamran Əsədov şagirdə stul atan müəllimi müdafiə edib

"Uşağa tərbiyə vermək ailənin vəzifəsidir, müəllimin yox"

(səh.7)



## Hələ "dərin oyunun" başlanğıc hissəsidir

Suriyada problemlərin iti bucağı bundan sonra start götürəcək

(səh.3)







# Prezidentdən xəbərdarlıq

## “Ermənistan bizimlə silah yarışında tab gətirməyəcək”

### "Belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın"

**“Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır və düşünürəm ki, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur”.**

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev ”Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində deyib. Dövlət başçısı vurğulayıb ki, ölkələrimiz üçün çətin vaxtlarda həmişə həm vəziyyətin dərk olunmasını nümayiş etdirmişik, həm də özümüzü dostcasına aparmışıq. Prezident bundan sonra da belə olacağına əminliyini ifadə edib: ”Əlbəttə, biz iqtisadi-ticari əməkdaşlıq üçün fəal şəkildə yeni sahələr tapmağa davam edirik”.

### ”Rusiyanın müdafiə sənayesi hazır olduqda, təbii ki, yeni müqavilələr bağlayacağıq”

**Prezident deyib ki, Rusiyanın müdafiə sənayesi hazır olduqda, təbii ki, yeni müqavilələr bağlayacağıq:** ”Ən azı son üç ildə Rusiya silahlarının alınması ilə bağlı yeni müqavilələr imzalanmayıb”. Dövlət başçısı bildirib ki, bunun səbəbi isə Rusiya müdafiə sənayesinin, deyək ki, yerli istehlakçı üçün işləməsidir: ”Bildiyimə görə, Rusiya məlum səbəblərdən müvəqqəti olaraq beynəlxalq silah bazarından çəkilib. Hətta 4 il əvvəl imzalanmış bəzi müqavilələrin də Rusiyanın xahişi ilə icra müddəti təxirə salınıb. Biz vəziyyəti başa düşərək bununla razılaşdıq, bu vəziyyət nəticəsində həmin müqavilələr icra oluna bilməz. Amma biz Rusiyanın müdafiə sənayesinin yeniliklərini də diqqətlə izləyirik. Artıq yeni müraciətlərimiz olub. Biz onları bu yaxınlarda göndərmişik və Rusiyanın müdafiə sənayesi hazır olduqda, təbii ki, yeni müqavilələr bağlayacağıq. Odur ki, mən bu prosesi obyektiv səbəblərdən müvəqqəti olaraq dayandırılmış hesab edirəm”.

### ”İkinci Dünya müharibəsi nəticəsində müəyyən edilmiş oyun qaydaları bu gün artıq işləmir”

**Dövlət başçısı bildirib ki, Türkiyə ilə biz hər il 10-dan çox birgə təlim keçiririk:** ”Yarısı Azərbaycanda, yarısı Türkiyədə və mahiyyətcə hərbi əməliyyatların yüksək dərəcədə keçirilməsinə nail olmuşuq. Təbii ki, bu, Qafqazda sabitliyin mühüm amilidir. Çünki bugünkü dünya və hadisələrin inkişafı bir daha sübut edir ki, dünya əsaslı şəkildə dəyişib və İkinci Dünya müharibəsi nəticəsində yaranmış reallıqlar, müəyyən edilmiş oyun qaydaları bu gün artıq işləmir, hətta qlobal aktorlar bunu gizlətmirlər”.

### ”İstər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir”

Prezident diqqətə çatdırıb ki, xarici siyasətinin xüsusiyyətlərinə görə istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir: ”Həm də ona görə ki, bu, eyni zamanda həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur”.

### ”Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar Azərbaycan üçün praktiki təhlükə yaradır”

**Prezident İlham Əliyev deyib ki, Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar Azərbaycan üçün praktiki təhlükə yaradır:** ”Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır”. Dövlət başçısı deyib ki, Ermənistanla sərhədimizin uzunluğunun min kilometrdən çox olduğunu, bir çox yaşayış məntəqələrinin sərhədə yaxın yerləşdiyini və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlərin qayıtdıqlarını nəzərə aldıqda, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik: ”Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir”.

### ”Bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək”

**Prezident deyib ki, 2025-ci ildə növbəti hərbi büdcəmiz rekord büdcə olacaq. Bu, təxminən beş milyard dollardır”:** ”Bu məbləğin ən azı 60 faizini xərcləməyə məcburuq, belə təhdidlər olmasaydı, xərcləməzdik, Qarabağın bərpasına, sosial ödənişlərə və sair üçün istifadə edərdik. Lakin biz bunu etməyə məcburuq və edəcəyik. Məncə, bu, fəlakətə aparan yoldur. Birincisi, Ermənistan silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, bizimlə silah yarışında tab gətirməyəcək. Hətta bu halda da bizimlə silah yarışında tab gətirməyəcəklər. Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək. Axı Makron 2020-ci və ya 2023-cü ildə onlara necə kömək etdi, onları dəstəklədi, bəli, əlindən, yəqin ki, başqa hansı yerindən tutdu, bilmirəm. Bax, bu qədər. Biz onun nəyə qadir olduğunu çox yaxşı bilirik. Odur ki, biz həm danışıqlar prosesi çərçivəsində, həm də Ermənistanla Azərbaycan arasında işləyən delimitasiya komissiyası çərçivəsində və erməni sponsorlara, şərti olaraq Vaşinqtondakı sorosçulara bunu dayandırmaq lazım olduğunu çatdırırıq və çatdırmağa davam edəcəyik. Bu, belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın”.

### ”Deportasiya olunmuş təxminən 300 min azərbaycanlıdır”

**Azərbaycan Prezidenti Rusiya telekanalına müsahibəsində Qərbi azərbaycanlılar məsələsindən danışıb. Dövlət başçısı deyib ki, Azərbaycanda Ermənistandan gələnlərin icması var, onlar 1980-ci illərin sonunda - 1990-cı illərin əvvəlində deportasiya olunmuş təxminən 300 min azərbaycanlıdır:** ”Bu icma qayıtmaq, reinteqrasiya üçün onlara belə bir şəraitin yaradılmasına dair Ermənistan rəhbərliyinə rəsmi müraciət edib. Çünki onların 1990-cı illərin əvvəlində oradan deportasiyası o demək deyil ki, bu insanların qayıtmaq hüququ yoxdur. Ona görə də biz hələ bugünədək Ermənistan rəhbərliyindən azərbaycanlıların öz tarixi torpaqlarına reinteqrasiyası prosesini necə görmələri barədə cavab almamışıq”.

### ”Hazırda Makron rejimi Fransanı uğursuz dövlətə çevirir”

**Prezident bildirib ki, hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir:** ”Avropanın mərkəzində - Korsikada onlar (Fransa - red) Korsika dilini qadağan edirlərsə, bu dilin ictimai yerlərdə istifadəsinə icazə vermirlərsə, o zaman Yeni Kaledoniya haqqında nə demək olar? Bu, nəyə yarayar? Bu, demokratiyadır? Bu, insan hüquqlarıdır? Yəni Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil”.

### “Amerikanın səsi” və ”Azadlıq radiosu” kimi əlaltı resursları vasitəsilə ölkəmizə qara yaxırlar”

**Prezident deyib ki, ”Amerikanın səsi” və ”Azadlıq radiosu” kimi əlaltı resursları vasitəsilə ölkəmizə qara yaxırlar:** ”Azərbaycan mediası heç bir xarici mənbədən hətta bir faiz belə maliyyələşə bilməz. Bunu edə bilməz. Nə üçün? Axı biz ABŞ mediasını maliyyələşdirmirik. Düzdür? Nə üçün onlar bizimkiləri maliyyələşdirsin? Belə ki, onlar ”Amerikanın səsi” və ”Azadlıq radiosu” kimi əlaltı resursları vasitəsilə gecə-gündüz xalqımıza, ölkəmizə qara yaxırlar, Ermənistan üzərindən qələbəmizə kölgə salırlar”.

### ”Borrel bir neçə onillik əvvəl yaşasaydı, diktator Frankonun yaxşı xarici işlər naziri olardı”

**Prezident qeyd edib ki, Borrel bir neçə onillik əvvəl yaşasaydı, diktator Frankonun yaxşı xarici işlər naziri olardı:** ”Yeri gəlmişkən, Borrel haqqında danışdıq, mən ona məhəl qoymadım. Bunun ardınca ona hələ bir-iki siqnal göndərmək istəyirəm. Hərçənd mən COP-da çıxışlarımın birində bu barədə danışmışam, hətta Borreldən sitat gətirmişəm ki, o, Avropanın çiçəklənən bağ, qalanların isə cəngəllik olduğunu bildirib. Mən isə dedim ki, əgər biz cəngəllikiksə, bizdən uzaq durun. Ümumiyyətlə, Borrelə gəldikdə, düşünürəm ki, o, bir neçə onillik əvvəl yaşasaydı, diktator Frankonun yaxşı xarici işlər naziri olardı. Onun, sadəcə, başqa zamanda yaşamaqla bəxti gətirməyib” .

### ”Ermənistan KTMT-dən de-fakto çıxıb”

**Dövlət başçısı deyib ki, Ermənistan KTMT-dən de-fakto çıxıb:** ”Ermənistanın haraya getdiyi aydındır. Bizim yoxlanılmış məlumatlarımıza görə, onların de-yure çıxmamasının səbəbi hələ Dövlət Departamentindən təlimat almamalarıdır. Bunu alan kimi, onlar çıxacaqlar. Azərbaycan müstəqil aktordur və kifayət qədər ixtisaslaşıb, özünü müdafiə edə bilir. Ona görə də Gürcüstan Qafqaz uğrunda döyüşlərdə mühüm amildir. O, necə olacaq? O, bizim ənənəvi Qafqaz dəyərlərinə əsaslanacaq”.

### ”Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dost ölkədir”

**Prezident İlham Əliyev Gürcüstanda baş verənlərə münasibət bildirib və deyib ki, Gürcüstanda vəziyyət sabitləşir:** ”Biz buna şadıq. Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dostdur. Uzun əsrlərdir ki, xalqlarımız sülh və əmin-amanlıq şəraitində yaşayır. Ona görə də Gürcüstanda sabitliyin pozulması və ya sabitliyin pozulması təhlükəsi Gürcüstan üçün olduğu kimi, Azərbaycan üçün də zərərlidir. Bu səbəbdən biz öz tərəfimizdən çalışırıq və bütün addımları atırıq ki, Gürcüstanda vəziyyət siyasi məcrada sabit olsun, Gürcüstan uğurla inkişaf etsin”, - dövlət başçısı bildirib”. Azərbaycan Prezidenti qeyd edib ki, yenidən xarici təsir məsələsinə qayıtdıqda, məlum oldu ki, Gürcüstanda Qərbdən maliyyələşən minlərlə qeyri-hökumət təşkilatı fəaliyyət göstərir: ”Bu təşkilatlarda çalışan və ya əməkhaqqı alan insanların sayı isə yəqin ki, on minlərlə, hətta daha çoxdur. Biz bilirik ki, bu, nə deməkdir. Çünki burada, bizim ölkəmizdə qrantla qidalananların və qrant verənlərin özlərini ağa kimi apardıqları dövr var idi, amma biz bunun qarşısını aldıq. Ona görə də hər hansı qurumun, istər Azərbaycan və ya xarici olsun, verdiyi istənilən qrant qeydiyyatdan keçməlidir və müvafiq orqanlar icazə verib-verməməyi nəzərdən keçirməlidir”.

**İsmayıl**

# Türkiyə nümayəndə heyəti Bakıda

## Orduda aparılan islahatlar müzakirə olunub



**Azərbaycanda səfərdə olan general-leytenant Tuncay Altuğun rəhbərlik etdiyi türkiyəli nümayəndə heyəti Azərbaycan Ordusunun rəhbər vəzifəli şəxsləri ilə bir sıra işgüzar görüşlər keçirib.**

Müdafiə Nazirliyindən “Şərq”-ə verilən xəbərə görə, türkiyəli qonaqlarla görüşən Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Quru Qoşunları Komandanı general-polkovnik Hikmət Mirzəyev qonaqları salamladıqdan sonra onlara Azərbaycan Ordusunun Quru Qoşunlarının xidməti-döyüş fəaliyyəti, həyata keçirilən islahatlar, Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində görülən işlər və qazanılan uğurlar haqqında danışıb.

Qardaşlıq və dostluq üzərində qurulan Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının Ordumuzun Quru Qoşunlarının formalaşması və inkişafında çox vacib yerə malik olduğu ifadə edilib.

Səfər çərçivəsində Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində davam edən görüşdə müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları Komandanlığının nümayəndə heyətini salamlayaraq onları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib və qonaqlara mərkəzin fəaliyyəti barədə ətraflı məlumat verib.

Azərbaycan və Türkiyə arasında mövcud hərbi əməkdaşlığın Hərbi Hava Qüvvələrimizin inkişafında da çox vacib yerə malik olduğu ifadə edilib və bunun hərbi aviasiyamızın arsenalının gücləndirilməsində əhəmiyyəti xüsusi vurğulanıb.

Daha sonra Azərbaycan Hərbi Dəniz Qüvvələrində olan türkiyəli qonaqlar Hərbi Dəniz Qüvvələri Komandanı vəzifəsini müvəqqəti icra edən 1-ci dərəcəli kapitan Şahin Məmmədov ilə görüşüblər.

Hərbi Dəniz Qüvvələrinin əsas bazası ilə tanışlıq zamanı Türkiyə Silahlı Qüvvələrinin nümayəndə heyətinə buranın fəaliyyəti barədə ətraflı məlumat verilib, Azərbaycan və Türkiyə hərbi dənizçilərinin beynəlxalq təlimlərdə qazandığı uğurlardan danışılıb.

*Görüşdə, həmçinin birgə təlimlərin, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti, eləcə də digər maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.*

# "Aramızda razılaşma var, əməl edirik"

## Paşinyanın müavini: “Sərhədin delimitasiyası üzrə Komissiyanın iclası keçiriləcək”



**Yaxın günlərdə Ermənistan və Azərbaycan arasında sərhədin delimitasiyası üzrə Komissiyanın növbəti iclası baş tutacaq.**

Trend Ermənistan KİV-ə istinadən xəbər verir ki, bu barədə Ermənistanın Baş nazirinin müavini Mqer Qriqoryan jurnalistlərə deyib.

O, açıqlamasında Ermənistanın Azərbaycana sülh sazişi ilə bağlı yeni təkliflər təqdim etdiyini, lakin rəsmi cavab alınmadan bu təkliflərin detalları haqqında danışmağı məqsədəuyğun hesab etmədiyini qeyd edib.

M.Qriqoryan tərəflər arasındakı görüşlərdən sonra ictimaiyyətə onların nəticələri ilə bağlı informasiyanın çatdırıldığını xatırladıb.

”Bundan artıq heç nə deyə bilmirəm, çünki bizim aramızda müvafiq razılaşma var. Yalnız onu deyə bilərəm ki, bu razılaşmaya əməl edirik və bu, çox yaxşıdır. Mən düşünürəm ki, yaxın vaxtlarda növbəti görüş baş tutacaq.

Lakin onun vaxtı ilə bağlı heç nə deyə bilmərəm. Sualınıza da ona görə cavab verirəm ki, prosesin dayandığını düşünməyəsiniz. Bu proses davam edir. Bizim aramızda razılaşma var idi ki, reqlament qüvvəyə mindikdən sonra görüşüb birgə fəaliyyəti davam etdirək.

Eyni zamanda, regional nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı danışıqların getdiyini də deyə bilməyəcəyəm. Sadəcə onu söyləyə bilərəm ki, qarşı tərəfə təqdim etdiyimiz təkliflərə cavab gözləyirik”, - o deyib.

# Yaxın Şərqi yenidən dizayn etmək mümkündür

## Suriyada digər oyunçuların müdaxiləsi ilə ABŞ-nin hesabı baş tutmadı




**”Suriyada baş verənləri düzgün analiz etmək üçün ilk növbədə Suriyanın mənzərəsinə nəzər salmaq lazımdır. Suriya tamamilə dağılmış ölkədir, iqtisadiyyatı demək olar ki, yox dərəcəsindədir”. Bu barədə politoloq İlqar Vəlizadə deyib.**

Ekspert bildirib ki, vaxtı ilə Suriya Yaxın Şərqin inkişaf etmiş ölkələrindən biri idi: ”Hazırda isə Suriya tamamilə fraqmentariləşib. Yəni müxtəlif hissələrə bölünüb, təkcə dialoqla mövcud problemləri aradan qaldırmaq qeyri-mümkündür. Əslində, əksər ölkələrdə bu və ya digər formada problemlər yaşanır. Ancaq xarici müdaxilələr və kənar təsirlər problemləri başqa məcraya yönəldir. Çünki kənar güclərin əsas məqsədi Yaxın Şərq regionunu yenidən formalaşdırmaqdan ibarət idi. Bölgə ölkələrinin sərhədlərini pozaraq orada yeni dövlətlər qurmaq niyyətində olublar. Bu prosesin də başında ABŞ dayanırdı. Kondoliza Raysın 2004-cü ildə Konqresdə çıxışını xatırlayaq. O deyirdi ki, ”hakim siyasi dairələrin tez-tez bir-birini əvəz etməsi gündəmə gəlməlidir. Çünki bir ölkədə eyni qüvvə uzun müddət hakimiyyətdə qala bilməz”. Bu, onların baxışıdır. ABŞ rəsmi dairələri müxtəlif coğrafiyalara fərqli yanaşma sərgiləyirlər. Məsələn, post-sovet coğrafiyasında ”rəngli inqilab”ları həyata keçirirdilər. Yaxın Şərqdə isə ”Böyük Yaxın Şərq” layihəsi gündəmdə idi. İraqda Səddam Hüseyni devirdilər, Əfqanıstanda çevriliş etdilər. Hesab edirdilər ki, Yaxın Şərqi yenidən dizayn etmək mümkündür”.

**İ.Vəlizadə qeyd edib ki, Suriyada digər oyunçuların müdaxiləsi ilə ABŞ-nin hesabı baş tutmadı:**

”Nəticə onların istədiyi kimi olmadı. ABŞ ən azından çalışdı ki, Suriyanın şimal-şərqində kürdlərin yaşadığı bölgəni nəzarətə götürsün. Burada Amerikanın hərbi bazaları var. Əslində məqsəd həmin bölgədə ”kürd dövləti” qurmaqdır. Təbii ki, belə bir ”dövlət” bölgənin digər ölkələrinə də təhdid yaradacaqdı. Həmin dövlətlərdən biri Türkiyədir. Bu təhdidi yaxın müddətdə aradan qaldırmaq mümkün olmaya bilər, çünki uzunmüddətli layihədir”.

**İsmayıl**



# Türkiyə ilə ortaq və qardaşlıq yolu

## Bölgəmizdəki təhdidlərə cavab vermək hədəflərdən biridir

**Prezident İlham Əliyev ”Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində deyib ki, İkinci Dünya müharibəsi nəticəsində müəyyən edilmiş oyun qaydaları bu gün artıq işləmir, hətta qlobal aktorlar bunu gizlətmirlər.**

Dövlət başçısı qeyd edib ki, Türkiyə ilə hər il 10-dan çox birgə təlim keçiririk: ”Yarısı Azərbaycanda, yarısı Türkiyədə və mahiyyətcə hərbi əməliyyatların yüksək dərəcədə keçirilməsinə nail olmuşuq. Təbii ki, bu, Qafqazda sabitliyin mühüm amilidir. Çünki bugünkü dünya və hadisələrin inkişafı bir daha sübut edir ki, dünya əsaslı şəkildə dəyişib”.

Ölkə rəhbəri Rusiya ilə münasibətlərdən də bəhs edib və 2022-ci il fevralın 22-də imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməyə diqqət çəkib: ”Belə bir Bəyannamənin imzalanması bizim 30 ildən artıq bir müddətdə birlikdə keçdiyimiz, fəal işlədiyimiz, həm iqtisadi-ticari, həm də siyasi sahələrdə əməkdaşlıq potensialını artırdığımız və müxtəlif çətin vəziyyətlərdə bir-birimizi sınadığımız həmin böyük yolun nümayiş etdirilməsidir. Buna görə də hesab edirəm ki, belə bir Bəyannamənin imzalanması faktının özü həm Rusiya, həm də Azərbaycan tərəfindən ən mühüm siyasi addımdır. Bu, qarşılıqlı fəaliyyətin və əməkdaşlığın ən yüksək formasıdır, xüsusən nəzərə alsaq ki, biz həm Qafqazda, həm də Xəzər regionunda qonşu dövlətlərik, qonşuyuq və bir çox cəhətdən ölkələrimizin xarici siyasət prioritetləri üst-üstə düşür, o zaman, əlbəttə, deyərdim ki, belə bir sənəd tarixi hadisədir”.

Prezident bildirib ki, Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır: ”Düşünürəm ki, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur. Artıq dediyim kimi, ölkələrimiz üçün çətin vaxtlarda biz həmişə həm vəziyyətin dərk olunmasını nümayiş etdirmişik, həm də özümüzü dostcasına aparmışıq. Əminəm ki, bundan sonra da belə olacaq”.

**"Ölkə başçısının Türkiyə ilə sıx əməkdaşlığa diqqət çəkməsi, Azərbaycanın Cənubi Qafqazın təhlükəsizliyində mühüm rol oynadığını qeyd etməsi də bunun bariz nümunəsidir"**

**Ölkə rəhbərinin toxunduğu məqamlarla bağlı ”Şərq”ə danışan millət vəkili Vüqar İsgəndərov deyib ki, cənab Prezident Rusiya televiziyasına müsahibəsində bir çox maraqlı məqamlara toxundu. Deputatın sözlərinə görə, dövlət başçısının diqqət çəkdiyi mühüm məqamlardan biri yeni dünya düzənində baş verən hadisələr və bu hadisələr fonunda Azərbaycanın tutduğu mövqedir:**

”Cənab Prezident Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın son illərdə yürütdüyü müstəqil xarici siyasət və siyasət sayəsində qazanılmış çoxsaylı uğurlarımızdan bəhs etdi. Əvvəla, çox doğru olaraq qeyd olundu ki, artıq dünya düzəni pozulub. Dövlət başçısının da vurğuladığı kimi, İkinci Dünya müharibəsindən sonra yaranmış siyasi palitra artıq əvvəlki kimi çalışmır və yeni düzən formalaşdırılır. Təbii olaraq, hər bir ölkə də bu yenilənmə prosesində öz mövqeyini müəyyənləşdirir. Ölkə rəhbəri eyni zamanda Azərbaycanın şimal qonşusu Rusiya ilə münasibətlərinə toxundu. Vurğuladı ki, Azərbaycanın Rusiya ilə münasibətləri dostluğa, strateji əlaqələrə və müttəfiqlik münasibətlərinə söykənir. Prezident bu kontekstdə həm ölkənin iqtisadi gücünün artırılması, həm də hərbi gücünün inkişafı barədə maraqlı nüanslara diqqət yönəltdi. Azərbaycan və Türkiyə arasında qardaşlıq münasibətinə, bir il ərzində 10 hərbi təlimin keçirilməsinə vurğu edilməsi də önəmlidir. Azərbaycan Ordusunun 44 günlük müharibədə 5-ci nəsil performans göstərməsi, 23 saatlıq antiterror əməliyyatını çox unikal formada həyata keçirməsi, legitim hədəflərin dəqiq vurulması və mülki obyektlərə heç bir ziyan vurulmaması çox təqdirəlayiq hadisələrdir. Hələ də güclü ordusu olan ölkələrin mütəxəssisləri Azərbaycanın taktikasını öyrənməklə məşğuldurlar”.

**Parlamentari qeyd edib ki, cənab Prezident yeni dünya nizamındakı risklər barədə fikirlərini bəyan edərkən, hər bir ölkənin təhlükəsizliyinin təminatının, ordu quruculuğunun, iqtisadi inkişafın paralel inkişafının nə qədər zəruri olmasına da diqqət çəkir:**

”Bölgəmizdəki təhdidlərə cavab vermək və təhlükəsizliyin dayanıqlı olması Azərbaycanın qarşısında duran vacib məsələlərdən biridir. Ölkə başçısının Türkiyə ilə sıx əməkdaşlığa diqqət çəkməsi, Azərbaycanın Cənubi Qafqazın təhlükəsizliyində mühüm rol oynadığını qeyd etməsi də bunun bariz nümunəsidir. Azərbaycanın Ermənistanla sülh prosesini irəliyə daşıması yönündə qarşıya çıxan maneələr, əngəllər sırf İrəvan hökumətinin yarıtmaz siysəti ucbatından baş verir. Kənar güclərin Ermənistanı plasdarm kimi istifadə etməsi kövrək sülh prosesinə də ciddi təsir göstərir, zərər vurur. Ermənistan da ağıllı siyasət yeridərsə, bu, ermənilərin özü üçün faydalı olar. Həm də Cənubi Qafqazda sülhün bərqərar, dayanıqlı olmasına şərait yaradar”.

**İsmayıl Qocayev**

# Prezidentin apardığı siyasət gələcəyimizin yeganə qarantıdır

## Ağıllı, dəqiqliklə ölçülüb-biçilmiş siyasət nəticəsində beynəlxalq güclərin aqressiv siyasəti neytrallaşdırılıb



**”Xarici siyasətin xüsusiyyətlərinə görə, istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir”. Bu fikri Prezident İlham Əliyev ”Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində səsləndirib. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan eyni zamanda həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir:**

”Dünyada ikinci belə ölkə yoxdur”. Prezident qeyd edib ki, buna görə də öhdəliklərimizin məntiqi zənciri üzrə irəli getsək, görərik ki, müttəfiqlik öhdəliklərimiz çoxşaxəlidir: ”Biz isə təbii ki, Yer üzündəki real vəziyyətdən çıxış edəcəyik və bir daha demək istəyirəm ki, bəlkə, hansısa mərhələdə Azərbaycanın səyləri tələb olunacaq. Burada Rusiya Ordusunun Baş Qərargah rəisi və NATO Hərbi Komitəsinin rəisi səviyyəsində bir sıra görüşlər keçirilib, eləcə də Birləşmiş Ştatların və Rusiyanın hərbi rəhbərliyi də Bakıda görüşüblər. Axı bu, təsadüfən seçilməyib. Həm Qərbdə, həm Rusiyada, həm də Şərqdə etibar edilən ölkələr çox deyil. Həm də hərbi-siyasi strukturlarda formal və ya qeyri-formal üzvlüklə məşğul olmayan ölkələr çox deyil. Buna görə də, əgər belə bir ehtiyac olarsa, biz gərginliyin aradan qaldırılmasına öz töhfəmizi verməyə hazırıq”.

**Millət vəkili Nəsib Məhəməliyev ”Şərq”ə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin Azərbaycanın müstəqil xarici siyasəti ilə bağlı fikirləri konkret faktlara əsaslanır. Deputat vurğulayıb ki, bu, əldə olunmuş uğurlarla təsdiqlənir:**

”Bu siyasətin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və cənab Prezident tərəfindən yeni çağırışlara uyğun şəkildə həyata keçirilir. Əgər belə olmasaydı, ”Əsrin kontraktı” imzalanmazdı, transmilli layihələr icra olunmazdı. Həmçinin iqtisadiyyatın inkişafından, güclü ordu quruculuğundan, təbii ki, Qarabağın və ətraf rayonların işğaldan azad olunmasından söhbət gedə bilməzdi. Azərbaycan tarixən müxtəlif imperiyaların, beynəlxalq güclərin maraqlarının toqquşduğu məkandır. Ərazi və əhali baxımdan kiçik ölkə olmasına rəğmən, ağıllı, dəqiqliklə ölçülüb-biçilmiş siyasət nəticəsində, həmin güclərin aqressiv siyasəti neytrallaşdırılıb. Bir-birinə zidd ictimai-siyasi quruluşa, geosiyasi təfəkkürə malik böyük dövlətlərlə strateji müttəfiqlik və dostluq münasibətlərinin qurulması son dərəcə çətin işdir. Təsəvvür edin, bir tərəfdən Rusiya və İran kimi dövlətlər, digər tərəfdən isə NATO üzvü olan qardaş Türkiyə, ABŞ, Avropa İttifaqı..”.

**Parlamentari bəyan edib ki, bu dövlətlərin hər biri beynəlxalq münasibətlər sistemində öz oyununu oynayır:**

”Əksər hallarda ziddiyətli oyunlar. Hər birisi Azərbaycanı öz tərəfinə çəkmək istəyir, rəqiblərinə qarşı platforma kimi istifadə etməyə çalışırlar. Münasibətlərdəki cüzi səhv baha başa gələ bilər. Yaxın Şərqdə, Ukraynada və s. regionlarda gedən proseslərin faciəli sonluğu hər kəsə bəllidir. Tarixi keçmişə, mədəniyyətə malik böyük dövlətlər yerlə yeksan oldular. Milyonlarla insan yurdlarından didərgin düşdü. Aralıq dənizi artıq ”böyük qəbiristanlıq” adlandırılır. Azərbaycan Prezidentinin apardığı siyasət müstəqilliyimizin, iqtisadi, siyasi, sosial inkişafımızın, beynəlxalq subyektivliyimizin, gələcəyimizin yeganə qarantıdır. Hər birimiz, böyük zəhmət hesabına yaradılmış, daxili ictimai-siyasi sabitliyin, milli birliyin qorunmasına çalışmalıyıq”.

**İsmayıl Qocayev**

# İlon Maskın xəyanət etməsi real ehtimal deyil

## O, sadəcə olaraq ABŞ-dəki səhnəarxası siyasi dairələrin maraqlarına zidd fəaliyyətinə görə hədəfə alınıb

**”SpaceX” şirkətinin ABŞ ordusu və kəşfiyyat agentlikləri üçün göyə buraxdığı yüklər barədə məlumatlar dövlət sirri hesab olunur. Bu cür məxfi informasiyalar yalnız xüsusi icazəsi olan seçilmiş əməkdaşlarla bölüşdürülür.**



”The Wall Street Journal”ın iddiasına görə, ”SpaceX”in qurucusu və baş direktoru İlon Mask həmin şəxslər siyahısına daxil deyil. Şirkətin hüquqşünasları rəhbərliyə Mask üçün yüksək təhlükəsizlik səviyyəsi əldə etməyə cəhd etməməyi tövsiyə ediblər. Çünki belə bir icazə veriləcəyi halda İlon Mask hökumətin xarici vətəndaşlarla əlaqələri və narkotik istifadəsi ilə bağlı suallarına cavab verməli olacaq. Hökumət həmçinin ehtiyat edir ki, Mask mütəmadi olaraq xarici rəsmilərlə, o cümlədən Rusiya Prezidenti Vladimir Putinlə əlaqə saxladığı üçün məxfi məlumatları sızdıra bilər. WSJ daha əvvəl yazmışdı ki, Mask 2022-ci ildən bəri Putinlə müntəzəm əlaqə saxlayır. Buna baxmayaraq, ABŞ-nin seçilmiş Prezidenti Donald Tramp İlon Mask üçün çıxış imkanını dəyişə bilər. Trampın rəhbərliyi altında yaradılan ”Hökumət Effektivliyi Departamenti” (DOGE) hökumətin restrukturizasiyası ilə məşğul olacaq. DOGE rəhbərlərindən biri də Maskdır. ”SpaceX” artıq Mask və digər DOGE əməkdaşlarının məxfi məlumatları təhlükəsiz şəkildə incələyə biləcəyi xüsusi məkanların axtarışı ilə məşğuldur.

WSJ-nin məlumatına görə, hazırda Maskın icazəsi ona müəyyən milli təhlükəsizlik sirlərinə çıxış imkanı versə də, əksər məxfi proqramlara giriş üçün tələb olunan xüsusi icazəsi yoxdur. Bu, xüsusilə ”Starshield” adlı peyk-kəşfiyyat proqramına aiddir. Eyni zamanda Maskın ”SpaceX”in məxfi layihələrin icra olunduğu və müzakirə edildiyi obyektlərin əksəriyyətinə daxil olmasına icazə verilmir.

”The New York Times” isə ABŞ-li milyarder İlon Mask və ona məxsus ”SpaceX” şirkətinin təhlükəsizlik protokollarına əməl etmədiyi üçün nəzarət altında olduğunu yazıb. Nəşrin yazdığına görə, biznesmen qayda pozuntularına görə federal araşdırma ilə üzləşib. Federal qurumlar şirkət və onun rəhbərinin dövlət sirlərini qorumaq məqsədi daşıyan açıqlama protokollarına əməl edib-etməməsi ilə bağlı azı 3 araşdırmaya başlayıb: ”Mask və onun ”SpaceX” şirkəti dəfələrlə dövlət sirlərini qorumaq üçün federal hesabat protokollarına əməl etməyib, o cümlədən xarici liderlərlə görüşlərinin bəzi təfərrüatlarını gizlədiblər”.

Sözügedən xəbərlərə milyarderin reaksiyası kifayət qədər sərt olub: ”Dərin dövlət xainləri ənənəvi mediada pullu tərəfdarlarından istifadə edərək üstümə düşüblər. Mübarizəni başladan mən olmaq istəmirəm, amma onlar başlasa, dərin dövləti bitirəcəyəm”.

**Amerikalı milyarderlə hökumət arasındakı gərginliyi şərh edən siyasi ekspert Elçin Xalidbəyli ”Şərq”ə açıqlamasında İlon Maskın Bayden administrasiyası üçün arzuolunmaz şəxs hesab olunduğunu deyib. Onun sözlərinə görə, İlon Maskın hədəfə alınma səbəblərindən biri ABŞ-də keçirilən prezident seçkilərində qalib gələn Donald Trampa ciddi şəkildə dəstək verməsi, Bayden Administrasiyasına qarşı müəyyən iradlar və ittihamlarla çıxış etməsi olub:**

””İlon Maskın bir çox ölkələrlə əlaqələrinin, hətta bir neçə dünya liderləri ilə şəxsi münasibətlərinin olması da istisna deyil. Lakin ”SpaceX” kimi nəhəng bir şirkətə sahib İlon Maskın Amerika Birləşmiş Ştatlarına xəyanət etməsi real ehtimal deyil.

Sadəcə olaraq Maskın ABŞ-dəki səhnəarxası siyasi dairələrin maraqlarına zidd fəaliyyətinə görə onun hədəfə alınması istisna deyil. Hətta İlon Maskın sözügedən açıqlamasında açıq-aşkar ABŞ-də dərin dövlətin olduğunu qeyd etməsinin özü belə kifayət qədər önəmli bir məqamdır. ABŞ-nin rəsmi şəxsləri adətən bu mövzuda danışmır və belə suallardan yayınırlar. İlon isə bunu etiraf edib”.

**Ekspert qeyd edib ki, ABŞ-dəki dərin dövlətin parçalanmış vəziyyətdə olması ilə bağlı məlumatlar var:** Qanadlardan biri Bayden Administrasiyasını, digər isə Respublikaçıları dəstəkləyir. Trampın hakimiyyətə gəlməsində də məhz dərin dövlətin ikinci qanadının əhəmiyyətli rolunun olduğu bildirilir. İlon Maskın dərin dövləti sıradan çıxartmaqla hədələməsi, əslində, bütövlükdə dərin dövlətin bitirilməsi yox, məhz Bayden administrasiyasına dəstək verən təmsilçilərinin sıxışdırılmasına yönəlik bir təhdiddir. Lakin İlon Mask kimi böyük bir iş adamının belə ABŞ dərin dövlətinə qalib gələcəyi, onlara gücünün çatacağı inandırıcı görünmür. Böyük ehtimalla bu sadəcə, ”əzələ nümayişi”dir. Mask bu etirafı ilə ona qarşı təhdidlərin hansı qüvvələr tərəfindən edildiyini bildiyinin mesajını verir”.

**Şəymən Bayramova**

**Əgər İsrail Əsəd rejiminin devrilməsindən sonra işğal etdiyi ərazilərdən qüvvələrini geri çəkməsə, biz bununla bağlı tədbir görəcəyik.**



Bu barədə Bəşər Əsədin süqutundan sonra Suriyada hakimiyyətə gələn müxalif ”Heyət Təhrir əş-Şam” qruplaşmasının rəhbəri Əbu Məhəmməd Colani deyib.

Qeyd edək ki, dekabrın 8-də Əsəd rejiminin devrilməsindən sonra İsrail ordu bölmələri Qolan təpələri istiqamətində bufer-zonaya daxil olub.

# Hələ "dərin oyunun" başlanğıc hissəsidir

## Suriyada problemlərin iti bucağı bundan sonra start götürəcək

**Politoloq Tofiq Abbasov ”Şərq”ə deyib ki, İsrail əvvəldən öz tədarükünü gördü ki, Suriyanın yeni hakimiyyətini fakt qarşısında qoysun:**

”İsrail Suriyada bütün cəbhəxanaları, hərbi-sursat saxlama yerlərini, aeroport və uçuş zolaqlarını sıradan çıxardı. Orada külli miqdarda hərbi texnika, artilleriya qurğuları və s. batdı. Bir sözlə, İsrail artıq yeni Suriyanı tərk-silah etdi. Həmçinin ordu birləşmələrini önə çıxarmaqla göstərdi ki, onun niyyəti son dərəcə təhlükəlidir. Yəni Netanyahu hakimiyyəti əlindən gələni edir ki, yeni hökumət ona hərbi cəhətdən heç bir müqavimət göstərə bilməsin. Bundan sonra isə İsrail öz həyat arealını genişləndirsin. Qəzza bölgəsi artıq yox səviyyəsindədir. Çünki İsrail qoşunları onu yerlə-yeksan etdilər. Burada ən böyük narahatlığı doğuran, təəccüb və hiddət yaradan Qərb dünyasının, xüsusilə də ABŞ-nin bu məsələyə dözümlü yanaşmasıdır. Çünki faktiki olaraq İsrail bölgə ölkələrinin hamısına, o cümlədən də Türkiyəyə meydan oxuyur. Digər tərəfdən, Türkiyə və İsrail Bəşər Əsədi devirmək üçün əlbir oldular. Onların birgə planı var idi. Buna baxmayaraq, Türkiyə hökumətinin nümayəndələri İsraili qınayırlar, Hitlerə bənzədirlər. Lakin onlar da taktiki qazanc üçün potensial düşmənlə sövdələşməyə gedirlər”.

**Politoloqun sözlərinə görə, Suriyada problemlərin iti bucağı bundan sonra başlayacaq:**

”Yeni hökumətin formalaşması çox ağrılı prosesə çevriləcək. Meydanda qatı islamçılar, radikal millətçilər və din xadimlərindən başlayaraq mötəbillərə qədər müxtəlif şəxslər var. Bunlar hamısı gərək birlikdə konsensus yaradıb hökumət qursunlar. Bu, keçid hökuməti olmalıdır. Digər tərəfdən, parlament seçkiləri keçirilməli və konstitusiyanın təməli qoyulmalıdır. Qarşıda görüləcək işlərin həm mahiyyəti, həm də vacibliyi həddən artıq böyükdür. Onları həyata keçirmək üçün sabiq şərait yaratmaq lazımdır. İlk növbədə ən mühüm tələb odur ki, atəşkəs rejimi qeyd-şərtsiz qüvvəsini saxlasın. Amma çətin ki, o iddialar və ambisiyalar ortaya çıxdığı halda hər hansı bir qüvvə öz gücünü göstərmək üçün silahdan imtina etsin. Adətən belə vəziyyətlərdə təhrikçi mövqedən çıxış edən qüvvələr çalışırlar ki, sabitlik yaranmasın. Eyni zamanda qüvvələr nisbəti bəlli olsun ki, kimin arxasında nə olduğu və gücü bilinsin. Bir çox mütəxəssislər və təhlilçilər deyirlər ki, guya bu oyunda qaliblər və məğlublar var. Bununla razılaşmaq lazımdır. Ancaq həm qaliblər, həm də məğlublar nisbidirlər. Bu hələ ”dərin oyunun” başlanğıc hissəsidir. Bəşər Əsədin hakimiyyətdən uzaqlaşması hələ heç bir şey demək deyil. Yəni Suriya yerində qalır. Amma onun gələcəyi və taleyi, hansı sərhədlərdə öz mövcudluğunu qoruyub saxlayacağı, tərkibinin kimlərdən ibarət olacağı və s. sual altındadır. Bu suallara cavab tapmaq üçün ilk növbədə Suriyanın vətənpərvər qüvvələri öz sözünü deməlidir. Əminliklə demək olar ki, hələ uzun vaxt sabitlik olmayacaq”.

**Aynur Babazadə**

# Makron sülh prosesini əngəlləyir

## Fransadan alınan hücum silahları normallaşmaya ən böyük təhdiddir



**Böyük Qayıdışın baş tutduğu bir vaxtda Ermənistanın sərhəd boyu əraziləri silah-sursat anbarına çevirməsi təhlükədən xəbər verir**

**Prezident İlham Əliyev Rusiya televiziyasına müsahibəsində Ermənistanın silahlanmasına da toxunub. Dövlət başçısı vurğulayıb ki, Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar Azərbaycan üçün praktiki təhlükə yaradır.**

Ölkə rəhbəri deyib ki, Ermənistanla sərhədimizin uzunluğunun min kilometrdən çox olduğunu, bir çox yaşayış məntəqələrinin sərhədə yaxın yerləşdiyini və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlərin qayıtdıqlarını nəzərə aldıqda, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik: ”Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir”. Prezident vurğulayıb ki, bu barədə həm açıq şəkildə, həm də Ermənistanın baş naziri ilə danışıqlarda dəfələrlə deyilib, narahatlıq çatdırılıb: ”Biz eyni narahatlığı Fransa hökumətinə və Bayden administrasiyası dövründə Cənubi Qafqaz ölkələrinə balanslı yanaşmasını dəyişərək Ermənistana birtərəfli dəstək yolunu tutan Birləşmiş Ştatların rəhbərliyinə də çatdırırdıq. Təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var”. Ölkə rəhbəri bildirib ki, Fransa bu məsələdə liderlik edir: ”İkinci yerdə Hindistan, üçüncü yerdə isə ABŞ-dir. Fransa və Hindistan Ermənistanı öldürücü silahlarla təmin etdiklərini gizlətmirlər, - hətta bir növ, yəqin ki, bizim acığımıza nümayişkaranə cəsarət göstərirlər, - ABŞ isə bunu etiraf etmir. Halbuki biz Ermənistanın hava limanlarına enən və oraya silah daşıyan hərbi nəqliyyat təyyarələrini izləmişik”. Prezident adekvat tədbirlərin görüldüyünü deyib: ”2025-ci ildə növbəti hərbi büdcəmiz rekord büdcə olacaq. Bu, təxminən beş milyard dollardır. Bu məbləğin ən azı 60 faizini xərcləməyə məcburuq, belə təhdidlər olmasaydı, xərcləməzdik, Qarabağın bərpasına, sosial ödənişlərə və sair üçün istifadə edərdik. Lakin biz bunu etməyə məcburuq və edəcəyik. Məncə, bu, fəlakətə aparan yoldur. Birincisi, Ermənistan silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, bizimlə silah yarışında tab gətirməyəcək. Hətta bu halda da bizimlə silah yarışında tab gətirməyəcəklər. Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək”.

Xatırladaq ki, rusiyalı politoloq İqor Korotçenko da deyib ki, erməni elitasının məsuliyyətsiz davranışı ucbatından Ermənistanın arsenalına daxil olan Fransanın hava hücumundan müdafiə sistemləri mülki avialaynerlər üçün təhlükə yaratmağa qadirdir: ”Ümumiyyətlə, Ermənistan üzərində Qərb texnologiyalarına əsaslanan, müvafiq sistemli məlumat ötürmə vasitələri ilə NATO hava hücumundan müdafiə bölməsinin yerləşdirilməsinin regionun təhlükəsizliyinə təhdid olduğu aydındır. Qərbin hava hücumundan müdafiə çətiri Ermənistanda yerləşdirildikdən sonra İrəvanda istənilən an xarici hərbi bazaların, regiondankənar oyunçuların - Fransanın, ola bilsin ki, AB-nin bazalarının quraşdırılmasını görə bilərik. Bunun üçün maddi baza hazırlanır. Qərbin hərbi mövcudluğu üçün ən vacib şərt Ermənistan üzərində Qərbin hava hücumundan müdafiə ”çətiri”dir. Ona görə də bütün bunlar mərhələ-mərhələ həyata keçiriləcək”.

**Prezidentin diqqət çəkdiyi məqamı ”Şərq”ə dəyərləndirən millət vəkili Hikmət Babaoğlu deyib ki, Ermənistan bir tərəfdən sülhdən danışır, başqa tərəfdən isə ən müasir hücum silahları almaqla sülhü təhdid edir. Deputatın sözlərinə görə, belə olan halda əlbəttə ki, sülhün əldə olunması mümkün görünmür:**

”Azərbaycan Prezidenti bu məsələyə toxunaraq qeyd edir ki, işğaldan azad olunmuş ərazilərimizə Böyük Qayıdışın baş tutduğu bir vaxtda vətəndaşlarımızın Ermənistanla sərhəd boyu öz tarixi, yurd-yuvalarına qayıtdığı bir vəziyyətdə Ermənistanın sərhəd boyu əraziləri silah-sursat anbarına çevirməsi, Azərbaycana qarşı hücum silahları əldə etməsi sülhü təhdid altına alır. Bu prosesdə Fransanın davranışlarını xüsusən tənqid edirik. Fransadan alınan hücum silahları və digər ölkələrdən əldə edilən silahlar təhlükəsizliyimizi birbaşa təhdid edir. Nəzərə almaq lazımdır ki, Ermənistan-Azərbaycan sərhədi təqribən 1000 km.dir. Bir tərəfdən Ermənistan sərhədlərinin delimitasiya və demarkasiyası ilə bağlı əsasnaməni imzalayır və parlament ratifikasiya edir. Başqa tərəfdən sərhəd boyunca müdafiə səngərləri, yeraltı tunellər qazır, hücum silahlarını orada gizlətməklə Azərbaycana açıq şəkildə təhdidlər yaradır. Başda Fransa olmaqla Ermənistanı silahlandıran ölkələr düşünməlidirlər ki, onların davranışları sülhə yox, beynəlxalq hüququn pozulmasına, dövlətlərarası münasibətlərin korlanmasına, Ermənistan-Azərbaycan arasında müharibənin yenidən alovlanmasına xidmət edir. Bu məsələnin geniş qlobal informasiya məkanına təqdim olunması Ermənistanın militarist davranışlarının dünya ictimaiyyətinin diqqətinə çatdırılması kimi qiymətləndirilməlidir”.

**İsmayıl Qocayev**

# "Ziya Gökalp və Türk dünyası"

## AMEA-da böyük türk mütəfəkkirinin vəfatının 100 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Simpozium keçiriləcək

**Dekabrın 20-də Azərbaycan Türk Ocağı İctimai Birliyinin və AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun təşkilatçılığı ilə İnstitutun Akt zalında böyük türk mütəfəkkiri Ziya Gökalpın vəfatının 100 illiyinə həsr olunmuş ”Ziya Gökalp və Türk dünyası” adlı Beynəlxalq Elmi Simpozium keçiriləcək.**




Konfransda AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə, Türk Ocaqları Baş Qərargahının sədrin köməkçisi professor Mehmet Şahingöz, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini Eynulla Mədətli, Azərbaycan Türk Ocağı İctimai Birliyinin sədri Akif Aşırlı, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri Faiq Ələkbərli, Ankara Hacı Bayram Veli Universitetinin professoru Zaynabidin Abdiraşidov, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun baş elmi işçisi professor Rəfail Əhmədli, professor Paşa Quluzadə, Yıldız Teknik Universitetinin professoru Süleyman Doğan, Akdeniz Universitetinin professoru Mustafa Yıldıran, ”Türk Yurdu” jurnalının baş redaktoru Ayşegül Büşra Paksoy və Ankara Hacı Bayram Veli Universitetinin müəllimi dr. İbrahim Atabey müxtəlif mövzularda məruzələrlə çıxış edəcəklər.

**Keçiriləcək konfrans barədə ”Şərq”ə məlumat verən AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, türkoloq-alim Faiq Ələkbərli deyib ki, bu il Türk dünyasının böyük mütəfəkkiri Ziya Gökalpın vəfatının 100 illiyidir. Alim bildirib ki, bununla bağlı Türk dünyasında tədbirlər keçirilir:**

”Türkiyədə və Türkistanda geniş tədbirlər keçirilir. Azərbaycanda keçiriləcək tədbirlərdən biri də Azərbaycan Türk Ocağı İctimai Birliyinin və AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun təşkilatçılığı ilə keçiriləcək. Fəlsəfə İnstitutunda ”türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi şöbəsi” yaradılıb. Biz də burada fəal şəkildə iştirak edirik. Ziya Gökalp böyük şəxsiyyət idi. Biz onu Türk dünyasının mütəfəkkiri, filosofu hesab edirik. Çünki onun əsərləri bütün türk xalqları ilə bağlıdır. Onun ”Türk mədəniyyəti”, ”Türk dilinin əsasları” əsərləri, ”Türkləşmək, müasirləşmək, islamlaşmaq” əsəri hamısı türk dünyasının yenidən dirçəlməsi, inkişafı üçün mühüm töhfədir. Xüsusi qeyd etmək lazımdır ki, Ziya Gökalpın fikirlərinin formalaşmasında Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadənin də mühüm rolu olub. Onların hamısı bütövlükdə Türk dünyasının mütəfəkkirləridir. Ziya Gökalp sadəcə Türkiyə deyil, bütün Türk dünyası, xalqları üçün önəmli şəxsiyyətdir. Ona görə belə tədbirlər keçirmək boynumuzun borcudur”.

**İsmayıl**

# İki şərt dəyişməyib

## Azərbaycanın əsas sülh tələbləri gündəmdədir



**Ermənistan sülh müqaviləsini imzalamazdan əvvəl konstitusiyanı dəyişməli və ATƏT-in Minsk qrupunun ləğvinə razılıq verməlidir**

**”Biz, əslində, sülh sazişi üzrə böyük irəliləyiş əldə etmişik. Bu sənədin 17 maddəsinin 15-i razılaşdırılıb, ikisi qalıb. Kazanda Ermənistanın baş naziri ilə sonuncu görüşüm zamanı eşitdiyim və hiss etdiyim o oldu ki, razılaşdırılmamış bu iki maddə də Ermənistan tərəfindən qəbul oluna bilər, mən bizim şərtlərimizi nəzərdə tuturam”.**

Prezident İlham Əliyev qeyd edib ki, əgər Azərbaycanın tələbləri icra olunsa, sülh sazişinin imzalanmasına heç bir maneə olmayacaq: ”Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamazdan əvvəl konstitusiyanı dəyişməli və ATƏT-in Minsk qrupunun ləğvinə razılıq verməlidir. Çünki konstitusiya müstəqillik bəyannaməsinə istinad var ki, bu da öz növbəsində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistanın tərkibində elan edildiyi Azərbaycana ərazi iddialarını ehtiva edir. Ona görə də konstitusiyanın dəyişdirilməsi bizim şıltaqlığımız deyil, bunlar sadəcə, obyektiv şərtlərdir”. Prezident vurğulayıb ki, Bakının ikinci şərti ATƏT-in Minsk qrupunun ləğvidir: ”Bu məsələ konsensus yolu ilə həll olunduğundan, Ermənistanın razılığı olmadan bunu etmək formal olaraq mümkün deyil, baxmayaraq ki, ATƏT-in Minsk qrupu uzun müddətdir fəaliyyət göstərməsə də, o, formal olaraq mövcuddur. Və sualımız ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyıbsa və Minsk qrupu da Qarabağ məsələsini həll etmək üçün idi, o zaman bu, nəyə lazımdır?”. Dövlət başçısı əlavə edib ki, Ermənistanın ATƏT-in Minsk qrupunu ləğv etmək istəməməsi revanşistlərin planlarının kifayət qədər ciddi olduğunu deməyə əsas verir.

**Politoloq Turab Rzayev deyib ki, uzun müddətdir Azərbaycan-Ermənistan arasında sülh sazişi üzərində iş gedir. Ekspertin sözlərinə görə, 4 il ərzində sülh danışıqlarında, müzakirələrdə enişli-çıxışlı məqamlar olsa da, ümumən prosesi irəliyə daşımaq mümkün olub:**

”Bəzən tərəflərin müzakirələrində kifayət qədər gərginlik də müşahidə olunur. Bəzən isə sülh sazişinin imzalanmasına çox yaxın olduğumuz qeyd edilir, hətta ilin sonunadək müqavilənin imzalanmasının mümkünlüyündən danışılırdı. Tərəflər, əsasən İrəvan hökumətinin rəsmiləri saziş mətninin 1 həftə, 10 gün ərzində imzalanacağını belə istisna etmirdilər. Amma bəllidir ki, burada razılaşdırılmamış məsələlər qalmaqdadır. Ermənistan tərəfi 3 məsələdə razılıq olmadığını deyirdi. Azərbaycan tərəfi razılaşdırılmamış iki məqamın qaldığını vurğulayır. Fikir belədir ki, sənədin preambula bölməsi, əsas maddələri və razılaşdırılmamış iki bəndin əsas hissəsi ilə bağlı ümumi anlaşma mövcuddur. Ancaq Azərbaycan tərəfinin əsas tələbləri gündəmdədir”.

**Müsahibimiz vurğulayıb ki, ilk növbədə Ermənistan ölkəmizə qarşı ərazi iddialarından rəsmən vaz keçməli, bu iddiaları öz konstitusiyasından çıxartmalıdır:**

”Ermənistan konstitusiyasının preambula hissəsi açıq şəkildə Azərbaycan ərazilərinə iddia edir. Orada ”Qarabağın Ermənistana birləşdirilməsindən” bəhs olunur. Əlbəttə, bu, Azərbaycan tərəfindən qəbuledilməzdir. Həmçinin Minsk qrupunun ləğvi və Zəngəzur dəhlizinin fəaliyyətə başlaması məsələsində İrəvan maneçilik törətməməli, üzərinə düşəni etməlidir. Bu məsələlərlə bağlı həlelik müzakirələr gedir. İrəvan hökuməti bu məqamların sülhə mane olmadığını iddia edir və şərtləri yerinə yetirməkdə tələsmir. Amma bu ziddiyyət digər məqamların müzakirəsinə və razılıq əldə olunmasına əngəl deyil. Əgər bəhs etdiyimiz məsələlərdə də razılaşma olarsa, tərəflər arasında sülh prosesi sürətlənər və nəticə əldə edilər. Əks halda müqavilənin imzalanması gecikə bilər”.

**İsmayıl**

# Suriyadakı proseslər Türkiyənin nəzarətindədir

## Ankara və Moskva arasında hər hansı razılaşma olubsa, bu razılaşma mütləq Ukraynada gedən müharibəni də əhatə edir

**Türkiyə və ABŞ-nin birbaşa iştirakı ilə Suriyada Bəşər Əsəd rejimi devrildikdən sonra Rusiyanın Suriyada Tartusdakı hərbi dəniz, Xmeymimdəki hərbi hava bazaları ölkədə mövcudluğunu davam etdirə bilər.**



Heç şübhəsiz ki, Bəşər Əsəd rejimini ayaq üstə saxlayan Rusiya və İranın hərbi qüvvələrinin ölkədən çıxarılması təbii görünür. Ancaq regiondakı proseslər və mövcud geosiyasi vəziyyət fərli qənaəti ortaya çıxarır.

**Siyasi şərhçi Vüqar Dadaşov ”Şərq”ə açıqlamasında deyib ki, Bəşər Əsəd rejimi devrildikdən dərhal sonra, ilk olaraq Türkiyə kəşfiyyat rəhbəri İbrahim Kalının Dəməşqə səfəri, ABŞ dövlət katibi Antoni Blinkenin isə Ankaraya səfəri Suriya hökumətinin formalaşmasının Türkiyədə həll edilməsini və bu barədə Antoni Blinkenin açıqlaması Suriyadakı proseslərin tam olaraq Türkiyənin istək və nəzarəti ilə davam etdiyinə sübutdur:**

”Məlumat var ki, Türkiyə Suriyada Bəşər Əsəd rejiminin devrilməsini Rusiya ilə razılaşdırıb.

Bəşər Əsədin Rusiyaya qaçırılması və onu aparan təyyarəsinin təhlükəsizliyinə Türkiyənin zamanəti ortadadır. Üstəlik, Türkiyə Prezidenti cənab Ərdoğanın Qaziantepdə Rusiya Prezidenti Vladimir Putin haqqında dedikləri və Rusiyanın Bəşər Əsəd rejiminin devrilməsindən dərhal sonra rus qoşunlarının təhlükəsizliyi və ölkədən çıxarılmasında Türkiyəyə xahişi deyilən sövdələşmənin mövcudluğuna inamı artırır. Əlbəttə ki, Rusiya hərbi bazalarının Suriyada mövcudluğunun təkcə Bəşər Əsəd rejiminin devrilməsinə Rusiyanın razılığının verilməsi müqabilində, ağırlığına uyğun gəlmir. Olsun ki, Suriyada Rusiyanın hərbi mövcudluğunun davamı müqabilində, Zəngəzur dəhlizinin açılması və dəhlizin təhlükəsizliyi üçün Azərbaycan və Türkiyənin nəzarətində bufer zonanın yaradılması razılaşma predmetidir. Suriya ilə bağlı Türkiyə və Rusiya ilə hər hansı razılaşma olubsa, bu razılaşma mütləq Ukraynada gedən müharibəni də əhatə edir”.

Rusiyanın Suriyadakı hərbi bazalarının mövcudluğunun davamının hüquqi əsaslarına gəldikdə isə V.Dadaşov deyib ki, Rusiya öz hərbi bazalarının Suriyada yerləşməsini Bəşər Əsədlə yox, müvafiq beynəlxalq müqavilə ilə Suriya dövləti ilə 49 il müddətinə və sonradan 25 il uzadılması imkanı ilə razılaşdırıb: ”Yeri gəlmişkən, Tartusdakı hərbi baza hələ SSRİ dövründə, 1971-ci ildə ikitərəfli razılaşma əsasında yaradılıb. Sözsüz ki, Rusiya ilə beynəlxalq müqavilənin denonsasiyasını Suriyanın yeni hökuməti birtərəfli qaydada həyata keçirə bilər, o şərtlə ki, müqavilə şərtlərində denonsasiya nəzərdə tutulubsa. Ancaq Rusiyanın belə mahiyyətli müqavilə imzalaması inandırıcı deyil. Bu arada da Kremldən verilən məlumata görə, Rusiya Suriyanın yeni hakimiyyəti ilə hərbi bazalarının saxlanılması üçün danışıqlar aparır.

Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Partiya) sözçüsü Ömer Çelik mətbuat konfransında da ”Rusiya və ya hər hansı bir ölkənin hərbi bazalarının Suriyada qalıb-qalmaması məsələsi iki tərəf arasında həll edilməlidir” - deyə bildirib. Belə gedişlə, Rusiya Suriyada öz hərbi mövcudluğunu qoruya bilər, təbii ki, ancaq Türkiyə ilə razılaşmaqla”.

**Ekspertin sözlərinə görə, Suriyada Bəşər Əsəd rejiminin devrilməsində İsrailin iştirakı ilə bağlı müəyyən fikirlər var və hətta İsrail Baş naziri Benyamin Netanyahu belə bir açıqlama da verib.**

Ancaq Bəşər Əsəd rejiminin devrilməsindən sonra əldə olunan sənədlər Bəşər Əsəd rejiminin İsraillə əməkdaşlığı, xüsusi xidmət orqanlarının birgə fəaliyyətini təsdiq edən sənədlər aşkar edilib. Əlbəttə ki, İsrail yaranmış vəziyyətdən fürsət də edə bilər. İranın Suriyada hərbi mövcudluğu sona yetib, İranın İraqdan da çıxarılması növbəti mərhələdə baş tutacaq.

**Şəymən**



# Qarabağ zəfəri…

## Zahid Oruc: "...Bizə yeni dünyanın bölüşdürülməsi prosesində iştirak imkanı verir"

**Türkiyə ilə biz hər il 10-dan çox birgə təlim keçiririk - yarısı Azərbaycanda, yarısı Türkiyədə və mahiyyətcə hərbi əməliyyatların yüksək dərəcədə keçirilməsinə nail olmuşuq. Təbii ki, bu, Qafqazda sabitliyin mühüm amilidir.**

Bu fikri Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində səsləndirib.

"Çünki bugünkü dünya və hadisələrin inkişafı bir daha sübut edir ki, dünya əsaslı şəkildə dəyişib və İkinci Dünya müharibəsi nəticəsində yaranmış reallıqlar, müəyyən edilmiş oyun qaydaları bu gün artıq işləmir, hətta qlobal aktorlar bunu gizlətmirlər", - deyə dövlət başçısı vurğulayıb.

**Millət vəkili Zahid Oruc "Şərq"ə deyib ki, Prezident İlham Əliyevin müsahibəsi regional və beynəlxalq mediada, o cümlədən müvafiq beyin mərkəzləri, siyasi institutları, ümumilikdə informasiya məkanında hər zaman əks-səda doğurur:**

"İlham Əliyevin fikirləri özünün əhatəliliyi ilə fərqlənir. Həmçinin gələcək dövrün tendensiyaları, dinamikaları və proqnozları burada öz əksini tapır. Ən başlıcası vəziyyətin dəqiq diaqnozunu ehtiva edir. İkinci Dünya müharibəsindən sonra formalaşan beynəlxalq təhlükəsizlik sisteminin dəyişik mövqeyi də çox açıqdır. Eyni ölkə rəhbəri bağlı qapılar arxasında dilə gətirilən fikirləri bu cür tezislə cəmiyyətimizə çatdırır. Sovetlər Birliyinin alman faşizmi üzərində qələbəsindən sonra BMT-nin təsisi və ardınca 1975-ci ildə ATƏT-in yaradılması güclər balansının hesabına idi. Yəni dünya ikiqütblü idi. Bunun nəticəsində dövlətlər də sanki Varşava Paktı və NATO birliyinin ətrafında formatlanmışdılar. SSRİ-nin çöküşü vəziyyəti xeyli dəyişdi. Qərb sisteminin həm ideoloji, həm siyasi, həm də hərbi cəhətdən qalibiyyəti sonrakı dövr prosesləri fərqli məcrada inkişaf etdirməyə imkanlar yaratdı. Əslində, NATO-nun faktiki olaraq SSRİ-dən sonra bilavasitə hədəfi yox idi. Lakin sonradan Əfqanıstanda terrorizm və beynəlxalq təhlükəsizliyi üçün yeni çağırışlar meydana gələndə NATO genişlənmənin fərqli bir siyasətinə keçdi. O zaman İran, Rusiya və Çin təhdidləri çox qabardıldı. Bir tərəfdən sanki Şimali Atlantika İttifaqının yaşarlığını təmin edən bir vasitəyə çevrildi ki, qurum dağılmasın. Həmçinin hərbi ittifaq kimi öz mövcudluğunu saxlasın. Digər tərəfdən, başqa bölgə gücləri özünün imkanlarını irəliyə daşımaqda, Qərb sisteminə qarşı həm ideya-siyasi, həm də hərbi cəhətdən əlaqələrini genişləndirməkdə idi. Bu baxımdan Rusiya-Ukrayna müharibəsi qlobal sistemə, 1990-cı illərdən sonrakı düzənə, beynəlxalq təhlükəsizlik mühitinə çağırış və dəyişiklik etmək mövqeyində idi. Yəni Qərb mərkəzli dünyadan çoxqütblü, ənənəvi, heç olmasa, 2-3 mərkəzli dünya quruculuğu sisteminə keçid başlamalı idi".

**Deputatın fikrincə, Azərbaycan liderinin burada nəzərdə tutduğu məsələlərdən biri Qarabağ zəfərinin bizə beynəlxalq və regional müstəvidə, yeni dünya bölüşdürülməsi prosesində bir subyekt kimi iştirak etmək imkanını verir:**

"Əslində, önəmli məsələ budur. Tarixdə həmişə müxtəlif müqavilələr bağlananda, ittifaqlar və imperiyalar formalaşanda, ya da dağılanda Azərbaycan həmişə itirib. Dövlətimiz 1918-ci ildən sonra meydana çıxanda, ondan əvvəl fərqli adlarda xalqımızın hər zaman ərazi və insan baxımından itkilərinin miqyası ölçüyəgəlməzdir. Belə olan şəraitdə Qarabağ vasitəsilə güclənən və bütövlüyünü təmin edən dövlət regional güc kimi iştirak edir. Həmçinin beynəlxalq proseslərdə özünün ayrıca mövqeyini ortaya qoyur. Belə olan şəraitdə Qərb dairələri Rusiyanı təkləmək və onu Ukrayna meydanında nəinki məğlub, hətta məhv etmək və dövlətçiliyini çökdürmək siyasətinə keçiblər. Şimal qonşumuz ABŞ və onun Avropa müttəfiqlərinə müqavimət göstərmək istəyən Şimali Koreyadan, İrandan tutmuş Avropa ölkələrinə qədər hamısını təşkilatlandırır. Sonuncu BRİCS tədbiri bir qədər daha çox dövlətlərin aktiv iştirakı ilə keçdi. Prezident İlham Əliyevin nəzərdə tutduğu məsələ ondan ibarətdir ki, bizə elə bir beynəlxalq regional düzən lazımdır ki, müstəqilliyimizi nəinki qoruyaq və inkişaf etdirək, o cümlədən hər hansı bir formatlar, daxil olduğumuz əlaqələr sistemi ölkəmizin azadlığını və hazırkı strateji planlarda fəaliyyətini əngəlləməsin. Yəni bizim üzərimizə xüsusi tələblər və öhdəliklər qoymasın, Azərbaycanın iradəsinə zidd olan planlar gerçəkləşməsin. Nə Brüssel, Berlin, Vaşinqton, nə də Tehrandan, ümumiyyətlə, digər paytaxtlardan Azərbaycan üzərində onun hakimiyyətini formalaşdırmaq və xalqın əvəzindən qərarlar vermək kimi siyasətlər meydana gəlsin. Ölkə başçısının beynəlxalq siyasətə münasibəti bundan ibarətdir".

**Zahid Oruc bildirib ki, Rusiya-Ukrayna savaşının həll edilməsi yönündə səmimi təşəbbüslərini ortaya qoyan Türkiyə və Azərbaycandır:**

"Türkiyənin NATO üzvü olması səbəbindən bir çox yanaşmalar mövcuddur ki, yenə də bütün beynəlxalq danışıqların platforması Bakı ola bilər. Çünki əvvəlki dövrdə ABŞ-nin hərbi generalı Bakıda Rusiyanın hərbi qərargah rəhbəri Valeri Gerasimovla görüşmüşdülər. Sonra NATO-Rusiya görüşləri də burada düzənləndi. Yəni diplomatik siyasi paytaxt statusumuz bərqərar olunmuşdu. Biz bu missiyanı davam etməyə hazırıq. Region baxımından 300-500 kilometr məsafədə bu cür ağır və amansız döyüşlər baş verir və bu, artıq qlobal təhlükəsizliyə zərbə vurur. Nəticədə isə ondan iki qat çox bölgə dövlətləri bundan ziyan çəkirlər. Suriyada Bəşər Əsəd hakimiyyətinin çöküşü və ondan sonra Yaxın Şərqdə yenidən formalaşan güc nisbətləri Cənubi Qafqaza da təsir edir. Xüsusilə də, Gürcüstanda seçkilərdən sonrakı əsas siyasi oxları "laxlatmaq" istəyən qüvvələr təkrar 2000-ci illərin əvvəllərindəki inqilabi prosesləri bir daha gerçəkləşdirmək istəyirlər. Bu baş tutarsa, artıq Ermənistanın da Qərb profilinə keçməsi ilə Azərbaycan üzərinə həlledici hücum imkanı əldə olunur. Ümumiyyətlə, İlham Əliyev beynəlxalq siyasətin analizini verərkən yeni dövrə və mərhələyə daxil olduq. Bundan başqa, Üçüncü Dünya müharibəsinin açıq şəkildə getdiyini görürük. Yəni 52 dövlət Rusiya ilə savaşır. Belə olan şəraitdə biz böhran və nüvə silahının tətbiqi perspektivləri olarsa, bundan qaçılması üçün fərqli siyasi düzən, beynəlxalq təhlükəsizlik konfransları, görüşləri və addımlarını istəyirik. Bu mənada Qlobal İqlim Sammitini təhlükəsizlik və sülh zirvəsinə çevirən ölkə rəhbəri məhz ona görə atəşkəs çağırışı ilə çıxış etdi. Tarix bu faktları yadda saxlayır ki, Azərbaycan dövlətinin Prezidenti bunları etdi".

**Aynur Babazadə**

# Əsrlərə bərabər ÖMÜR



**Azərbaycan xalqı tarixən milli maraqlar naminə, milliyyətçilik naminə canını, eşqini bu amala fəda edib. Heç şübhəsiz, bu amal millət olaraq birləşməyin, əbədi mübariz şəkildə var olmağın ən təməl prinsiplərindən biridir. "Bayraqları bayraq edən üstündəki qandır, torpaq, uğrunda ölən varsa, vətəndir!".**

Bu eşq uğrunda təkcə silahla ön cəbhədə deyil, həmçinin elm cəbhəsində də savaşımız hər zaman sürməkdə idi. Alimlər, böyük dühalar, ulu ruhlar məskəni olmuş qədim Azərbaycan torpağının ən mükəmməl simalarından biri də ustad Şirməmməd Hüseynov idi.

Keçmiş zamanda deməyimə baxmayın, onun qələmi hələ neçə-neçə gəncə işıq tutmaqda, yol göstərməkdə və əzmkarlıq nümayiş etdirməkdədir. Azərbaycan Cümhuriyyəti dövrünün parlaq simalarından olan böyük alim yazdığı məqalələrdə, dərc etdirdiyi kitablarda keçmişi unutmayaraq, gələcəyin müasir tərəflərini, tərəqqiyə getməyin həll yollarını, uğurun və zəfərin əsas özəyinin millət və dövlət sevgisi ilə yoğrulduğunu dəfələrlə dilə gətirib. "At ölənə qədər otlayar" misalını özünə şüar edən böyük ustad vəfatına yaxın aylarda da yeni çıxan mətbu orqanları izləyir, fəaliyyətlərini dərindən öyrənməyə davam edirdi. 150 illik yaşı olan Azərbaycan jurnalistikasının 100 yaşı bu gün Azərbaycan elm tarixində özünəməxsus iz salan, milli şüurun, oyanışın, yeniliyin tərəfdarı olan ustadın 100 yaşı ilə tamam oldu.

**100 illiyin mübarək, Ustad Şirməmməd Hüseynov!**

**Turğay Camal**

# Naxçıvana dotasiyanın azaldılması iki səbəblə bağlıdır

## Energetika və su ehtiyatları qurumlarının funksiyalarının mərkəzə ötürülməsi nəzərdə tutulur




**2025-ci ilin dövlət büdcəsi layihəsi Milli Məclisdə təsdiq olundu. Büdcə layihəsinin ilkin versiyasında gələn il büdcə xərclərinin 320,5 milyon manatının və yaxud 0,8 faizinin Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiyanın payına düşməsi nəzərdə tutulub.**

Bu, 2024-cü ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 4,8 faiz azdır. Qeyd edək ki, 2024-cü ildə dövlət büdcəsi xərclərinin 343,3 milyon manatı və yaxud 0,9 faizi Naxçıvan büdcəsinə verilən dotasiya kimi nəzərdə tutulub. Bu da 2023-cü illə müqayisədə 24,2 faiz azdır.

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə deyib ki, büdcə layihəsinin yekun sənədində dotasiya 34 milyon 816 min manat azaldılaraq 285 milyon 713 min manat nəzərdə tutulub. Deputat qeyd edib ki, son sənəddə dövlət büdcəsindən Naxçıvana ödəniləcək dotasiyanın məbləğinin azaldılması iki səbəb ilə bağlıdır:**

"Naxçıvanda energetika və su ehtiyatları qurumlarının funksiyalarının mərkəzə ötürülməsi nəzərdə tutulur. İkinci istiqamət üzrə dotasiyanın dövlət büdcəsinin mərkəzləşdirilmiş xərcləri vasitəsilə yenə də Muxtar Respublikanın ərazisində irəli gələn tədbirlərin maliyyə təminatına sərf olunması planlaşdırılır. Bütövlükdə, son illər dövlət büdcəsindən Naxçıvana dotasiya məbləğinin azaldılması bölgədə aparılan struktur islahatları və daxili maliyyə mənbələrinin genişlənməsi ilə bağlıdır. Eyni zamanda vəsaitlərin xərclənməsində səmərəliliyin və şəffaflığın gücləndirilməsi də dövlət büdcəsindən dotasiyaya tələbini azaldır. O baxımdan bir tərəfdən Naxçıvan Muxtar Respublikasının öz daxili gəlirlərinin artması, digər tərəfdən dövlət büdcəsindən ayrılan, paralel olaraq yerli səviyyədə xərclənən vəsaitlərin istifadəsinə nəzarətin güclənməsi Naxçıvan dövlət büdcəsinin strukturunu dəyişib. Bu, son illər vəsaitlərdən istifadədə səmərəliliyin artması nəticəsində dotasiyaya tələbin azalmasında özünü göstərir. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı daha da gücləndikcə, dövlət büdcəsindən ödənilən dotasiyaların məbləğlərində azalmalar davam edəcək".

**İsmayıl**

# "Ev verilməli, maaşı yüksək olmalıdır"

## Professor deyib ki, rayona gedən həkimlərə müəyyən üstünlüklər verilməlidir

**"Azərbaycanda fəaliyyət göstərən həkimlərin 60-70 faizi məhz paytaxtda cəmləşib".**



Ən azı müəyyən dövr üçün bunlar çox vacib faktordur

Bunu TƏBİB-in İcraçı direktorunun müavini Azər Nəsirov "Səhiyyə İdarəçiləri Zirvəsi - 2024" tədbirində deyib. O bildirib ki, hazırda regionlarda həkim çatışmazlığı müşahidə olunur. TƏBİB-in icraçı direktorunun müavini problemin həlli yollarından da bəhs edib. O qeyd edib ki, regionlarda bu problemi həll etmək üçün ürək mərkəzləri, onkoloji mərkəzlər yaradılıb və məqsəd səhiyyəni əhali üçün əlçatan olmalıdır.

O qeyd edib ki, bütün yaxşı, üçüncü səviyyəli səhiyyə xidmətinin Bakıda yerləşməsi fikri yanlışdır: "Düzdür, səhiyyə sistemində müəyyən problemlər var, amma son 4-5 ildir mövcud nöqsanların aradan qaldırılması istiqamətində böyük addımlar atılır".

TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov isə jurnalistlərə açıqlamasında regionlardakı həkim çatışmazlığı ilə bağlı layihə hazırlandığını deyib.

Onun sözlərinə görə, Qərb bölgəsində pilot layihənin icrasına başlanılacaq: "Burada cərrahi xidmətlərin daha da təkmilləşdirilməsi ilə bağlı gələn ilin yanvar ayından yeni layihə reallaşdırılacaq". Direktor qeyd edib ki, sözügedən layihə ilə bağlı regionlardakı icra hakimiyyətləri ilə danışıqlar aparılıb: "Həmin bölgəyə cəlb olunan həkimlərin və tibb işçilərinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı ciddi addımlar atılacaq. Məqsəd odur ki, regionda yaşayan vətəndaşımız tibbi xidməti yaşadığı əraziyə yaxın olan tibb müəssisəsində əldə etsin. Çox güman ki, gələn ilin ilk 6 ayında müsbət nəticələr əldə edəcəyik".

**Professor Adil Qeybullanın sözlərinə görə, rayona gedən həkimlərə stimullaşdırıcı tədbirlər görülməli, müəyyən üstünlüklər verilməlidir. Ən azı müəyyən dövr üçün bunlar çox vacib faktordur.**

Həkim "Şərq"ə açıqlamasında deyib ki, sözügedən problemin həllini regionlarda işləyən həkimlər üçün xüsusi sosial müdafiə tədbirlərinin həyata keçirilməsində görür: "Ev verilməli, maaşı yüksək olmalı, kommunal şəraiti dərhal təmin edilməli, başqa kommunal xərclərdən azad olunmalıdır.

Həkimlərimizin mütləq əksəriyyəti, həqiqətən də, Bakıda və digər iri şəhərlərdə cəmləşib. Bu da ondan irəli gəlir ki, paytaxtda və bir neçə iri şəhərimizdə həyat səviyyəsi rayon yerlərinə nisbətən yüksəkdir. Kənd və rayon yerlərində isə həkimlər üçün şərait yetərincə deyil. Ona görə də regionlarda həkim çatışmazlığını aradan qaldırmaq üçün həkimlərlə bağlı xüsusi sosial müdafiə tədbirləri həyata keçirilməlidir. Belə olarsa, rayon yerlərində də işləmək həvəsində olan həkimlərin sayı artacaq. Yəni elə etmək lazımdır ki, həkim regionlarda da işləməyə həvəs göstərsin. İcbari tibbi sığorta yaranandan fiksə olunmuş maaş sisteminə keçməli idik. Bu, məsələnin həllinə çox kömək edəcəkdi, amma olmadı. Arxasında korporativ maraqlar dayanan işlər baş verdi və nəticədə bu istiqamətdə icbari tibbi sığortadan yararlana bilmədik. İcbari tibbi sığortanın bir hədəfi də həkimlərin peşəkarlığının artmasıdır. Hesab edirəm ki, bu işin qurulmasında yanlışlıqlar olduğundan regionlarda həkim çatışmazlığı ilə üzə-üzə qalmışıq".

**A.Qeybullanın sözlərinə görə, regionlarda həkim çatışmazlığını aradan qaldırmaq üçün vacib addımlardan biri də pensiya yaşına çatmış həkimlərlə bağlı güzəştlərin tətbiqidir:**

"Əgər həmin həkim əmək qabiliyyətini saxlayıbsa, təcrübəlidirsə, öz işindən məmnundursa, özü də pensiyaya getmək istəmirsə, ona hansısa formada şərait yaradılmalıdır. Ola bilər ki, çalışdığı xəstəxanada yer yoxdur və s. Onu başqa yerə köçürmək olar. Bu iş TƏBİB-in əlindədirsə, bunlara görə birbaşa məsuliyyət daşıyır. Bu cür həkimlərin işlə təmin olunmasına diqqət etmək lazımdır. Pensiya yaşına çatması o demək deyil ki, işdən azad olunsun. İnsan əmək qabiliyyətini saxlayıbsa, faydalılıq əmsalı varsa, cəmiyyət onun fəaliyyətindən fayda görürsə, burada yaşın nə önəmi var? Bu, əslində, həkimlərə qarşı saygısızlıqdır".

**Şəymən Bayramova**

**Rusiya Cənubi Qafqazda konstruktiv xarakterli tədbirlər həyata keçirir və bu səylər sayəsində Bakı və İrəvan ikitərəfli münasibətlərin normallaşdırılması yolunda uğurla irəliləyir. Bu barədə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov xarici dövlətlərin hərbi attaşeləri üçün keçirilən brifinqdə bildirib.**




# Ermənistanın dövlət iradəsi yoxdur

## Bu gün Bakı və İrəvan arasında müsbət irəliləyişlər əldə etmək üçün kifayət qədər böyük məqamlar var

O söyləyib ki, Qərbin dağıdıcı hərəkətlərindən fərqli olaraq, Rusiya bu bölgədə konstruktiv tədbirlər həyata keçirir. Ölkəmizin səyləri sayəsində Bakı və İrəvanın ikitərəfli münasibətlərin normallaşdırılması yolunda açıq-aşkar müsbət irəliləyiş əldə etməsi göz önündədir. Onun sözlərinə görə, hazırda dövlətlərarası sərhədin ən çətin sahələrindən birinin - Azərbaycanın Qazax rayonu ilə Ermənistanın Tavuş vilayəti arasındakı xəttin demarkasiyası başa çatıb.

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq Tural İsmayılov "Şərq"ə söyləyib ki, Azərbaycan və Ermənistan arasında sülhün əldə olunması üçün ortada çox ciddi perspektivlər mövcuddur:**

"Azərbaycan hər zaman sülh, barış və etimadın formalaşmasından yana olub. Lakin bütün bunlara baxmayaraq, qarşımızda Ermənistan kimi təhlükəli bir ölkə dayanır. Ermənistanı qızışdıran Qərbin imperialist dairələri Cənubi Qafqazda iki ölkə arasındakı sülhə ən böyük maneədir. Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov da Qərbin dağıdıcı hərəkətlərinin real mahiyyətini izah edib. Doğrudan da, belə imperialist dairələr Azərbaycan əleyhinə qarayaxma kampaniyası həyata keçirməyə çalışırlar. Həmin Qərb dairələri ölkəmizi qaralamaq üçün Ermənistandan alət kimi istifadə edirlər. Ermənistan Qərb tərəfindən təkcə Azərbaycan əleyhinə deyil, eyni zamanda bölgədə olan digər güc mərkəzlərinə qarşı da plasdarma çevrilib. Bu gün Bakı və İrəvan arasında müsbət irəliləyişlər əldə etmək üçün kifayət qədər böyük məqamlar var. Bununla bağlı sadəcə, Ermənistanın dövlət iradəsi yoxdur. Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirdikdən sonra sülh müqaviləsi ilə bağlı hansısa real addımların atılmağı tendensiyasını müşahidə edə bilərik. Əks halda dövlətlərarası münasibətlərdəki problem qalmaqda davam edəcək".

**Şahanə Ziyad**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;



# Dövlət dəstəyi kiçik və orta sahibkarları həvəsləndirir

## Qeyri-neft sektorunun inkişafını durmadan sürətləndirməliyik

**Sahibkarların ölkə iqtisadiyyatına verdiyi töhfə nəzərə alınaraq, artıq 3 ildir ki, biznes nümayəndələrinə ”Dayaq” mükafatı təqdim edilir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən 2022-ci ildə təsis edilmiş ”Dayaq” mükafatının məqsədi biznesində innovativ və müasir yanaşmalar tətbiq edən, ixracyönümlü məhsul və xidmətlər istehsal edən, aktiv investisiya fəaliyyəti ilə seçilən, məşğulluğun təmin edilməsinə öz töhfəsini verən şirkətləri mükafatlandırmaqla onları stimullaşdırmaq, eləcə də sahibkarların qazandıqları uğurları ictimaiyyətin diqqətinə çatdırmaq, biznes düşüncə tərzini təşviq etmək, dövlət və özəl sektor arasında əlaqələri daha da möhkəmləndirməkdir.**

Rəmzi məna daşıyan ”Dayaq” mükafatı həm də dövlətin daim sahibkarların yanında olduğunun göstəricisidir. 2024-cü il üzrə ”Dayaq” mükafatının sahibkarlara təqdim edilməsi üçün İqtisadiyyat Nazirliyinin dəstəyi, KOBİA-nın təşkilatçılığı ilə tədbir keçirilib. Dövlət qurumlarının nümayəndələrinin, millət vəkillərinin, sahibkarların, beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb. Tədbirdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev 2024-cü il ərzində ölkəmizdə sosial-iqtisadi sahədə, özəl bölmədə əldə olunmuş uğurlar, sahibkarların məşğulluğun təmin olunmasında rolu, növbəti illərdə iqtisadiyyat və sahibkarlıq sahəsində yeniliklər barədə məlumat veriblər.

Milli Məclisin deputatı Nigar Arpadarai, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov isə çıxışlarında sahibkarlıq sahəsində qanunvericilik təşəbbüsləri, KOB-ların dayanıqlı və davamlı iqtisadi inkişafda, yaşıl keçiddə rolu, dövlət-özəl əməkdaşlığı barədə fikirlərini bölüşüblər. Sonra 2024-cü ildə uğur qazanmış 15 sahibkarlıq subyektinə dövlət qurumlarının rəhbər şəxsləri tərəfindən müxtəlif nominasiyalar üzrə ”Dayaq” mükafatları təqdim edilib. Sahibkarlar ”Turizm”, ”Fəal xarici şirkət”, ”Fəal ixracatçı şirkət”, ”Uğurlu fermer”, ”Gənc sahibkar”, ”Uğurlu qadın sahibkar”, ”İlin investoru”, ”Əlillik məhdudiyyət deyil”, ”İnnovativ həllər”, ”Uğurlu startap”, ”Naxçıvan Muxtar Respublikasında uğurlu şirkət”, ”Halal biznes”, ”Azad olunmuş ərazilərdə uğurlu biznes”, ”Yaşıl biznesin təşviqi” və ”Təmiz ətraf mühit və yaşıl artım” nominasiyaları üzrə mükafatlandırılıblar. Həmçinin KOBİA tərəfindən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi ”Bakı KOB evi”ndə ”G2B xidmətlərinin səmərəli təşkili” nominasiyası üzrə mükafata layiq görülüb. Tədbir çərçivəsində KOB-ların təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə layihələrinin maliyyələşdirilməsi məqsədilə KOBİA tərəfindən elan edilmiş 6-cı qrant müsabiqəsinin 20 qalibinə qrant mükafatları təqdim olunub. Qeyd edək ki, KOB-ların təhsil, elm, tədqiqat və dəstək istiqamətləri üzrə layihələrinin maliyyələşdirilməsinə dəstək məqsədilə indiyədək 6 qrant müsabiqəsi keçirilib və bu müsabiqələr çərçivəsində KOB-ların 99 layihəsinə 1,7 milyon manat həcmində qrant vəsaiti ayrılıb.

İqtisadiyyat nazirinin müavini Elnur Əliyev ”Dayaq” mükafatının təqdimat mərasimində deyib ki, həm 2025-ci ildə, həm də yaxın gələcəkdə qarşımızda duran əsas məsələlərdən biri işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması və orada iqtisadi infrastrukturun inkişaf etdirilməsi olacaq. E.Əliyev bildirib ki, bu sahədə də sahibkarlarımız fəallıq göstərirlər. Eyni zamanda dövlət tərəfindən bu məqsədlə zəruri dəstək təmin edilir və ediləcək: ”Artıq investorlar ”Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı və Ağdam Sənaye Parkının imkanlarından istifadə edirlər. Ötən ilin əvvəlindən işğaldan azad olunan ərazilərimiz üçün Vergi Məcəlləsinə və Əmək Məcəlləsinə geniş güzəşt və stimul paketi təsdiq edilib. Bu tədbirlər işğaldan azad olunan ərazilərimizə sərmayə cəlb olunmasına, bölgəmizdə sahibkarlığın inkişafına, biznesin çiçəklənməsinə xidmət edir”.

KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov ”Dayaq” mükafatının təqdimat mərasimində deyib ki, KOB subyektləri qeyri-neft dövriyyəsinin 37,3 faizini təşkil edib. Onun sözlərinə görə, KOBİA-nın faktiki fəaliyyətə başladığı 2018-ci ildən ötən 5 il ərzində KOB subyektlərinin sayı 64 faizə yaxın artaraq 401 mini keçib. KOBİA sədri qeyd edib ki, bu dövrdə KOB-lar tərəfindən yaradılmış əlavə dəyərin həcmi təqribən 2 dəfədən çox artaraq 9,8 milyard manatdan 20,1 milyard manata çatıb: ”Bu kateqoriyadan olan bizneslərin dövriyyəsi ötən il 43,8 milyard manat olub ki, bu da ölkə üzrə qeyri-neft dövriyyəsinin 37,3 faizini təşkil edib. Sevindirici haldır ki, bizneslərin inkişafı sahəsində dövlətimizin yaratdığı yeni təşkilati-hüquqi model və dəstək mexanizmləri beynəlxalq səviyyədə nümunəvi təcrübə kimi təqdir olunur. Bu ilin iyul ayında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Dövlət Sektorunda İnnovasiyalar üzrə Tədqiqat Mərkəzinin keçirdiyi müsabiqədə Azərbaycan brendi olan KOB evləri ekspertlər tərəfindən qabaqcıl innovativ təcrübə olaraq qiymətləndirilib və nümunəvi model kimi qurumun saytında dərc olunub. Həmçinin 2024-cü ilin sentyabr ayında 160-dan çox ölkəni əhatə edən BMT-nin Qlobal Sazişi tərəfindən KOBİA xüsusi sertifikat ilə təltif olunub. Sözügedən sazişin əsas elementlərindən biri ətraf mühit məsələsidir”.

Orxan Məmmədov əlavə edib ki, E-KOB evi portalı test rejimində istifadəyə verilib və növbəti ildə onun açılışı hədəflənir. O.Məmmədov qeyd edib ki, bu il ərzində yeni bölgələrdə ”KOB dostu” şəbəkəsinin əhatə dairəsi daha da genişlənib: ”Sahibkarlarımızın idxal-ixrac əməliyyatlarının asanlaşdırılması üçün Xaçmaz rayonunun Xudat şəhərində ”KOB evi”nin xidmətlər mərkəzi istifadəyə verilib. ”Bakı KOB evi”ndə ”KOB gömrük anbarı” təşkil olunub. Bu il, həmçinin dövlət-universitet-özəl sektor əməkdaşlığı çərçivəsində ”KOB model-müəssisə” yaradılıb. Ölkəmizdə yeni təcrübə olan və zəruri avadanlıqlarla təchiz edilmiş model-müəssisədə nəzəri bilikləri təcrübədə sınaqdan keçirmək, istehsal prosesində resursa, vaxta və xərclərə qənaət üsullarını öyrənmək mümkündür. Bununla yanaşı, KOB inkişaf mərkəzləri tərəfindən təmin edilən pulsuz təlim və konsaltinq xidmətləri, daxili bazar araşdırmaları, təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi üzrə qrant proqramı, vergi güzəştlərini əhatə edən Startap şəhadətnaməsinin verilməsi, iri ticarət şəbəkələrinə çıxış, yerli və beynəlxalq sərgilərdə iştirak üzrə dəstək tədbirləri və s. bizneslərin inkişafı üçün sahibkarların istifadəsində olub”.

### Güzəştlərin tətbiq olunması kiçik və orta biznesin, sahibkarlıq mühitinin inkişafına birmənalı şərait yaradır, müsbət impuls verir

**İqtisadçı-ekspert Fuad İbrahimli ”Şərq”ə açıqlamasında deyib ki, sahibkarların fəaliyyətinin stimullaşdırılmasında ən adekvat Vergi Xidməti tərəfindən adekvat reaksiyalar verilir. Ekspertin sözlərinə görə, son dövrlərdə sahibkarların fəaliyyətinin stimullaşdırılması yönündə bir sıra addımlar atılıb, vasitələr tətbiq edilib:**

”Sahibkarların vergi yükündən azad olması, vergi ödənişi ilə bağlı hansısa məsuliyyətə cəlb olunmaması olduqca faydalıdır. Belə olan halda sahibkar özünü daha rahat hiss edir, praqmatik tədbirlər görür. Dövlət qurumları tərəfindən digər güzəştlər də tətbiq olunur. Təbii ki, bunların hamısı təqdirəlayiqdir. Amma nəzərə alaq ki, sadəcə vergi güzəştləri ilə iş bitmir. Nəzərə alaq ki, Respublika ərazisində istənilən biznes fəaliyyətinə başladıqda müəyyən kommunal xidmətlərin texniki şərtləri də gündəmə gəlir. Bu sahədə kifayət qədər bahalaşmalar var. Düzdür, işğaldan azad olunmuş torpaqlarımızda kommunal xidmətlərlə bağlı məsələlər də həllini tapıb. Yaxşı olar ki, ölkəmizin digər regionlarında da bu xidmət sahəsi nəzərə alınsın. Əgər başqa bölgələrdə də kommunal xidmətlərin texniki şərtləri ilə bağlı güzəştlər tətbiq olunarsa, həmin regionlar da iqtisadi canlanar, dinamika artar. Qeyri-neft sektorunun inkişafını durmadan sürətləndirməliyik. Ümumən, indiki göstəricilərə əsasən vurğulamaq lazımdır ki, bu cür güzəştlərin tətbiq olunması kiçik və orta biznesin, sahibkarlıq mühitinin inkişafına birmənalı şərait yaradır, müsbət impuls verir”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**




## "Nar"ın tərəfdaşlığı ilə "Media Savadlılığı" Konfransı təşkil edildi

**“Nar”ın tərəfdaş qismində çıxış etdiyi ”Media Savadlılığı” Həftəsi çərçivəsində ”Media Savadlılığı” Konfransı təşkil edildi.**

Konfransın əsas məqsədi media savadlılığının əhəmiyyətini vurğulamaq, beynəlxalq təcrübələri paylaşmaq və həssas sosial qrupların, xüsusən gənclərin bu sahədə bilik və bacarıqlarını təkmilləşdirmək idi.

Konfransda iştirak edən yerli və beynəlxalq media ekspertləri, özəl şirkət və dövlət qurumlarının nümayəndələri, elmi tədqiqatçılar və vətəndaş cəmiyyəti nümayəndələri panel müzakirələrində yalan və manipulyasiya məqsədli məlumatlardan qorunma, fakt yoxlama texnikalarının tətbiqi və rəqəmsal məkanlarda məsuliyyətli davranış kimi media savadlılığının çoxşaxəli aspektlərini ön plana çəkdi.

”Nar” sərfəli mobil operator olmaqla yanaşı, eləcə də korporativ sosial məsuliyyət strategiyası çərçivəsində media savadlılığının artırılması və cəmiyyətin məsuliyyətli informasiya istifadəsinin təşviq olunması istiqamətində örnək dəstək nümayiş etdirir. Mobil operatorun bu təşəbbüsü cəmiyyətin informasiya mənbələri ilə səmərəli əlaqəsinin təbliğinə töhfə verir.

# Generalı Qərb kəşfiyyatı öldürüb

## Belə bir sui-qəsdi təşkil etmək üçün Ukraynanın imkanları məhduddur



### Rusiya hücumların şiddətini artıracaq və nəticədə Ukraynada minlərlə insan tələfatı qeydə alınacaq

**”Rusiya Silahlı Qüvvələrinin Radiasiya qoşunlarının rəisi İqor Kirillov və köməkçisi İlya Polikarpovun ölümü ilə nəticələnən terror aktının sifarişçiləri bizə məlumdur”. Bunu jurnalistlərə Kremlin mətbuat katibi Dmitri Peskov deyib.**

O bəyan edib ki, hazırda ölkəsi həmin hadisənin sifarişçiləri ilə mübarizə aparır. Bununla yanaşı, D.Peskov baş verən hadisədə üçüncü ölkələrin əlinin olması barədə sualı cavablandırmayıb: ”Hazırda istintaq gedir və mütəxəssislər kifayət qədər effektiv iş aparır. Hadisədən çox zaman keçməyib, amma hər şey artıq məlumdur. Hesab edirəm ki, bu terror olayının bütün detallarının üstü açılacaq”. Xatırladaq ki, srağagün Moskvada yaşayış binasında partlayış zamanı rusiyalı general İqor Kirillov və onun köməkçisi İlya Polikarpov həlak olub. Rusiya İstintaq Komitəsinin məlumatında bildirilib ki, Kirillov və onun köməkçisinin ölümünə skuter səbəb olub. Belə ki, partlayıcı qurğu binanın giriş hissəsində olan skuterə yerləşdirilib. Generalın ölümü dünya mediasında böyük müzakirələrə səbəb olub. Onu bu qədər əhəmiyyətli edən bir digər məsələ isə həm də Rusiya Silahlı Qüvvələrinin Radiasiya, kimyəvi və bioloji müdafiə qoşunlarının rəisi olmasıdır. Onun faciəvi sonu bəzi xarici media orqanlarında ”Oreşnik”lərin istehsalı ilə də əlaqələndirilib. Kirillov Rusiyanın III və IV dərəcəli ”Vətənə xidmətə görə”, ”Hərbi xidmətlərə görə” ordenləri, II dərəcəli ”Vətənə xidmətə görə” medalına layiq görülüb. Rusiya tərəfi onun ölümünü ”çox böyük itki” adlandırıb. Ukraynanın UNİAN nəşrinin məlumatında qeyd edilib ki, rusiyalı general-leytenant İqor Kirillov Ukrayna ordusuna qarşı kimyəvi silahdan istifadə edilməsi barədə göstəriş verən şəxsdir. Krillovun adı həm də qərb və şərq cinahlarda qadağan olunmuş kimyəvi partlayıcıların kütləvi istifadəsi ilə bağlı açılan cinayət işində hallanıb. Onun zəhərli maddələrin dron hücumlarında, eləcə də, döyüş qumbaraatmalarında əli olduğu bildirilib. Moskvada isə baş verən terror aktına bir az fərqli nöqteyi-nəzərdən yanaşanlar da var. Bunu CIA və MI5-in Ukrayna üçün danışıqlar masası qurmaq iddiasında olan Trampın işini zora soxmaq kimi izah edənlər də var. Çünki Kremlin sükutuna baxmayaraq, Rusiya Silahlı Qüvvələrinin ali hərbi rəhbərlərindən birinin Moskvada öldürülməsi, əslində, bir dövlətə müharibə elan etmək üçün əsl səbəbdir. Ekspertlərə görə, növbəti hədəf Rusiyada hipersəs texnologiyalarının inkişafında əsas rol oynayan alimlər ola bilər. Hədəflər arasında Qərb ölkələrini fəal şəkildə tənqid edən tanınmış siyasi və dövlət xadimləri də daxildir. Daha bir təhlükə hədəfi tanınmış jurnalistlər, siyasi ekspertlər ola bilər.

**Politoloq İlqar Vəlizadə isə ”Şərq”ə açıqlamasında deyib ki, Rusiyadakı terrorla bağlı artıq Ukrayna tərəfi məsuliyyəti öz üzərinə götürüb:**

”Lakin rus generalına qarşı belə bir sui-qəsd təşkil etmək üçün Ukraynanın imkanları məhduddur. Çox güman ki, bu işin arxasında Qərb ölkələrinin kəşfiyyat orqanlarının əli, bilavasitə dəstəyi var. Məqsəd isə bəllidir. Ölkədə qeyri-sabit mühit formalaşdırmaq. Bu cür terror aktlarının məqsədi cəmiyyətdə güclü qorxu və panika mühiti yaratmaqdır. Məhz buna görə də terrorçular hədəf kimi ciddi ictimai rezonans doğuran və əhalini qorxudan məşhur insanları seçirlər.

Hadisələrin gedişi də onu göstərir ki, bu terror aktına qarşı Rusiya cavabsız qalmayacaq və bu və ya digər şəkildə rus generalın qisasını almağa çalışacaqlar. Ya savaş meydanında gedən döyüşlərin şiddəti artırılacaq, ya da digər variantlardan istifadə ediləcək”.

**İ.Vəliyevin sözlərinə görə, bu cür terror aktları heç br halda Ukrayna dövlətinə fayda gətirməyəcək:**

“Krillovun ölümü Rusiya ordusunu zəiflətmək, Rusiyanı müharibədən çəkindirmək demək deyil axı. Onun yerinə başqa bir general gələcək və Ukraynaya qarşı daha sərt addımlar atacaq. Rusiyada generalların və hərbi mütəxəssislərin sayı kifayət qədər çoxdur. Zərər yenə də Ukraynaya olacaq. Bir generalın ölümünə görə Rusiya hücumların şiddətini artıracaq və nəticədə Ukraynada minlərlə insan tələfatı qeydə alınacaq”.

**Şəymən**

# Gözümün gözünə ehtiyacı var



**Misgər İsa sadə, təvazökar, heç kəsin xətrinə dəyməyən, danışanda ağzından duaya bənzər Sözlər çıxan bir Haqq adamıdır. Şairdir. Qazaxda doğulub, boya-başa çatıb. Ömrünün az qala yarım əsrini Bakıya bağlayıb. Qazaxın suyu, ab-havası canından çıxmayan bu Söz adamının şeirlərini "Şərq"in oxucularına çatdırırıq.**

*Gözəl insan, nəcib xanım*
*Könül həkimə kiçik bir xatirə*

**Qəzəl**

Allahın lütfüdür xürrəyi cahan yaşasın
Sevdadır dinimiz, eşq adlı iman yaşasın.

Nur üzlü şəhidlər əhli cənnət oldular ki,
Candan əziz vətən can Azərbaycan yaşasın.

Eşqində Züleyxa yüz cövri-cəfa eyləmiş
Allahın aşiqi Yusifi Kənan yaşasın.

Kim açmış eşq sirrin Məcnun olub Leylasına
İtirmiş ağlını tapdığı canan yaşasın.

Sevgidir qismətdən sərvəti-mal ruhumuza
Qucağın açacaq behişti-rizvan yaşasın.

Şərəfdir şüarı insanlara dünyamızın
Haramı halala qatmayan vicdan yaşasın.

Möcüzü-Musadır əlləri Könül xanımın
Sağalan hər ürək söyləyir, Loğman yaşasın!

Bu zalım fələyin insafı yox imiş, vallah
Bəxti kəm Misgərə vermədi imkan yaşasın.

*****

**Ehtiyacı var**

*Cənnət gülüm, İradəmin əziz xatirəsinə*

Dünyaya baxardım sənin gözünlə
Gözümün gözünə ehtiyacı var.
Həyatım uçulmuş susuz dəyirman
Özümün özünə ehtiyacı var.

Adındır dilimin ən şirin sözü
Andımdır dilimdə adının özü
Soldurur üzümü sənsizlik közü
Üzümün üzünə ehtiyacı var.

Nərgizlər nazlanır, lalələr yanır
Güllərin rənginə şehlər boyanır
Sinəmin üstündə bir dağ dayanır
Ayağının izinə ehtiyacı var.

Allahsız dünyada insan yaşamaz
Ümidsiz, inamsız iman yaşamaz
Sevgisiz, ürəksiz bir can yaşamaz
Canın can sözünə ehtiyacı var.

*******

**Gəlmir**

*Hər ilk və ya son baharda köç edən durna qatarına üz tutub, ah çəkib söylədiklərim*

Dünyaya yaz gəlir, hamı sevinir
Tək mənim bayramım, baharım gəlmir
Yüz namə göndərdim durna köçüylə
Küsübmü sevgili nigarım gəlmir?

Elini sevəni el incidərmi
Yolunu biləni yol incidərmi
Aşiqəm, ürəyim gül incidərmi
Bəs nədən vüsala vüqarım gəlmir?

Bir dərdli bülbüləm qəmdir avazım
Odlanan Kərəmə köklənib sazım
Zülümkar əliylə yazılıb yazım
Bəlkə də, o üzdən şikarım gəlmir?

Eşq ilə qovuşub uca dağ oldum
Sevgiylə çağlayan tər bulaq oldum
Qədəmi boyunca mən torpaq oldum
Gül açmır çəmənim, gülzarım gəlmir

Sinəmi qucaqlar bükülən qolum
Yar-yar söyləməkdən, qabardır dilim
Ayrılıq zülmüylə əyilir belim
Sevimli həmdəmim, həmkarım gəlmir.

Bir qala tikirdim, daşım tükəndi,
Ömrüm hədər getdi, yaşım tükəndi
Ocağım yanmadı, aşım tükəndi
Tükəndi həm səbrim, qərarım gəlmir.

Açılmaz heç zaman sirri göylərin
İnsanlar quludur həyati-sehrin
Dərdinə əlac yox xəstə Misgərin
Ərz edim, Loğmanım, bimarım gəlmir.

# Kamran Əsədov şagirdə stul atan müəllimi müdafiə edib

## "Uşağa tərbiyə vermək ailənin vəzifəsidir, müəllimin yox"

**Sosial mediada Sumqayıt şəhərinin 38 nömrəli tam orta məktəbində müəllimin şagirdi stulla vurmasına dair görüntülər yayılıb. Hadisə ilə əlaqədar Abşeron-Xızı Regional Təhsil İdarəsindən qeyd edilib ki, məsələ ilə bağlı araşdırma aparılıb:**

"Bildiririk ki, "Təhsilverənlərin etik davranış qaydaları"nı pozduğuna görə müəllim barəsində intizam tənbehi tədbiri görülüb. Eyni zamanda, məktəbin direktor səlahiyyətlərini müvəqqəti icra edən şəxsdən həvalə geri götürülüb. İdarə tərəfindən təhsil müəssisəsində sağlam psixoloji mühitin təmin edilməsi məqsədilə valideynlər və müəllimlə maarifləndirici söhbət aparılıb. Qeyd edirik ki, ümumi təhsil müəssisələrində təlim-tədris prosesi ilə yanaşı, şagirdlərin təhlükəsizliyi və daxili nizam-intizam qaydalarına əməl edilməsinə nəzarət əsas amil kimi daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə zəruri maarifləndirmə işləri görülür".

**"Şərq" xəbər verir ki, təhsil eksperti Kamran Əsədov sosial media paylaşımında şagirdə stul atan müəllimi müdafiə edib:**

"Bütün cəmiyyət müəllimi müqəddəs sayır, amma ən müqəddəs insanı belə bezdirəcək, özündən çıxaracaq vəziyyətə gətirən şagirdlər və onların valideynləri niyə sorğulanmır? Bir uşağa tərbiyə vermək ailənin vəzifəsidir, müəllimin yox. Müəllimin işi öyrətməkdir, amma indi o, sinifdə sanki nizam-intizamı bərpa etməyə çalışan "hakim" roluna çevrilib.

Öz övladına düzgün davranmağı, hörmət etməyi, məsuliyyəti öyrətməyən valideyn müəllimdən nə tələb edə bilər? Siniflər idarəolunmaz vəziyyətdədir, şagirdlərin tərbiyəsi, davranışı artıq biabırçılıq həddədir. Müəllimi günahlandırmadan öncə soruşun: "Mən övladımı necə böyütmüşəm?".

**Sözügedən məsələ ilə bağlı fikirlərini bölüşən gənc alim Elyar İslamoğlu da hesab edir ki, heç bir müəllim, üstəlik də, qadın müəllim öz-özünə əsəbiləşmir. Onu stulu atacaq həddə çatdıran valideynin evdə tərbiyə edə bilmədiyi uşaqdır:**

"Məktəb şagirdə təhsil verir, tərbiyəni valideyn evdə verməlidir. Ərköyün, harın, qudurğan böyüdülən uşağı məktəb tərbiyələndirə bilməz. Belə hadisələr zamanı müəllimlər yox, müəllimi o həddə çatdıran şagird və valideyn qınaq obyekti olmalıdır.

Məktəblərdə günü-gündən sözə baxmayan, şıltaq, tərs, intizamsız, kobud, sinifdəki əşyaları sındıran uşaqların sayı artır. Bu sayın artmasında laqeyd, övladı ilə maraqlanmayan valideynlərin rolu böyükdür. Məktəbdə özünü aparmağı bacarmayan, mütəmadi dərsləri pozan şagirdlər çətin tərbiyə olunan uşaqlar üçün müəssisələrə göndərilməlidir.

Biz orta məktəbdə oxuyan zaman indiki qədər şıltaq, çətin tərbiyə olunan şagird və onlar qədər də laqeyd valideyn yox idi. Çünki uşaqlar bilirdi ki, məktəbdə müəllimə qarşı tərbiyəsizlik etsələr, evdə valideyn tərəfindən cəzalanacaqlar.

Məktəb-valideyn münasibətləri düzgün tənzimlənməsə, bu gün müəllimə qarşı hörmətsizlik, tərbiyəsizlik edən şagirdlər gələcəyin cinayətkarı, narkomanı olacaqlar. Onlar gələcəkdə öz valideynlərinə də sahib çıxmayacaqlar".




**Digər təhsil eksperti də hadisədən sonra məktəb rəhbərliyində çalışan direktorun işindən azad edilməsinin doğru yanaşma olmadığını deyib**

**Digər təhsil eksperti Tural Abbasquliyev hadisədən sonra məktəb rəhbərliyində çalışan direktorun işindən azad edilməsinin doğru yanaşma olmadığını deyib. Onun sözlərinə görə, bu cür hallar cəmiyyət tərəfindən izlənir, valideynlər və uşaqlar tərəfindən görülür. Belə bir vəziyyətdə uşaqların davranışlarında sərbəstlik artır, müəllimin nüfuzu isə zəifləyir:**

"Müəllimi və ya direktoru işdən çıxarmaq nisbətən asan bir prosesdir. Lakin eyni ədalət prinsipi ilə uşağa da ciddi cəza tətbiq etmək, hətta müəyyən hallarda məktəbdən uzaqlaşdırmaq mümkün olmalıdır.

Beynəlxalq Uşaq Konvensiyasına əsasən, hər bir uşağın təhsil almaq hüququ var. Məktəblərin uşağı təhsil müəssisəsindən çıxarmaq səlahiyyəti yoxdur. Uşaq yalnız cinayət törətdiyi halda xüsusi təhsil müəssisələrinə göndərilir, burada da təhsilini davam etdirir. Bu halda belə suallar yaranır: müəllimin hüquqları nə olacaq? Bir müəllim təzyiq nəticəsində özünü intihara çatdırarsa və ya cinayət baş versə, bu vəziyyətin hüquqi məsuliyyətini kim daşıyacaq?

Allah eləməsin, belə bir hadisə baş versə, maraqlıdır, onda kim cəzalandırılacaq? Varmı bunun hüquqi və mənəvi əsası?

Bir çox halda uşaqların özləri qaçarkən divara dəydikləri və ya kiçik bir cızıq aldığı halda, bəzi valideynlər heç bir araşdırma aparmadan birbaşa hüquq-mühafizə orqanlarına müraciət edir. Sonra isə həmin valideynə vəziyyət izah olunur, amma proses artıq müəllim və məktəb üçün ciddi problemlərə səbəb olur. Belə bir atmosferdə, belə bir təzyiq mühitində təhsilin keyfiyyətindən və nizam-intizamdan danışmaq nə qədər mümkündür?

Bu proseslər müəllimi çarəsizləşdirir, onun cəmiyyət qarşısındakı nüfuzunu sarsıdır. Nəticədə müəllim cəzalandırılır, amma bu həddə gətirən uşağa heç bir ciddi tədbir görülmür. Məktəblərin uşağı təhsil müəssisəsindən çıxarmaq üçün qanuni prosedurları olmadığı halda, tərbiyəvi tədbirlər yetərsiz qalır. Bu balanssızlıq müəllimlərin çətin vəziyyətə düşməsinə, məktəb mühitində intizamın pozulmasına və nəticədə təhsilin keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır".

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Təhsilin keyfiyyətinə nəzarət sektorunun müdiri Anar Mustafazadə də sosial media hesabında bu mövzuya toxunub: "Müəllim davranışlarında yaranan neqativ halların səbəbləri subyektiv olmaqla bərabər, həm də obyektivdir. Subyektiv səbəblərə: xarakter, temperament tipi, ailədaxili münasibətlər, psixoloji hazırlıq və dözümlülük aid ola bilər.

Obyektiv səbəblərə isə müəllim hazırlığı, peşəkar inkişafa dəstək mexanizmləri, işə qəbul prosedurları, sosial rifah, tələb və təklif arasındakı balans aiddir. Siyahını uzatmaq olar. Subyektiv səbəblərlə mübarizə şəxsi inkişaf proqramından asılıdır ki, bu da ölkəmizdə yox dərəcəsindədir. Obyektiv səbəblərlə mübarizə olmur. O səviyyədə sadəcə nizam və sistem olmalıdır ki, onun da vəziyyəti məlumdur. Sadəcə, qısa şərh vermək kifayətdir ki, müəllim hazırlığı ilə məşğul olan ali təhsil müəssisələrinin proqramlarında sinfin idarə olunması ilə bağlı məzmun olmayıb. Səmərəli müəllim-şagird münasibətlərinin qurulması ilə bağlı uzunmüddətli praktik məzmun təşkil edilməyib. Müəllimlərin peşəkar inkişaf proqramı da həlelik sovet qalığıdır. Müəllimin bu cür davranışı nəticədir. Səbəblərlə mübarizə aparılmalıdır".

**Şəymən Bayramova**



## Həkim daha arxiv sənədləri axtarmayacaq

### Tibbi qeydiyyatın elektron şəkildə aparılmasının müsbət tərəfləri çoxdur

**Tibbi qeydiyyat üzrə sənədləşmə işlərinin elektronlaşması mütləqdir.**

Bunu Səhiyyə Nazirliyi Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev Səhiyyə İdarəçiləri Zirvəsi çərçivəsində keçirilən paneldə çıxışı zamanı deyib.

O, müasir rəqəmsallaşma ilə ayaqlaşmağın vacibliyini vurğulayıb: "Səhiyyə Nazirliyi də bu istiqamətdə ciddi layihələr hazırlayır və yaxın zamanda təqdimatı nəzərdə tutulur".

"Ümid edirəm ki, qarşıdakı il ərzində əmək qabiliyyətinin olmaması vərəqi və ya epikrizlər, digər şəhadətnamələrlə yanaşı, tibbi sənədləşmənin də elektronlaşması mümkün olacaq", - nazirlik rəsmisi əlavə edib.

R.Quliyev onu da qeyd edib ki, tibb müəssisələrinin akkreditasiya olunması ilə bağlı noyabr ayında müvafiq mərkəz yaradılıb, ştat formalaşdırılır, bu yöndə aktiv işlər görülür: "Təsdiq olunan tibb müəssisələrinin akkreditasiya qaydalarının dəyişdirilməsi gündəmdə idi və artıq layihə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə təqdim olunub.

Layihənin təkmilləşdirilməsindən sonra növbəti ildə tibb müəssisələrinin yeni qayda üzrə akkreditasiyasının, keyfiyyətə nəzarət mərkəzinin fəaliyyətini görəcəyik".

**Tibb və fəlsəfə elmləri doktoru, tanınmış həkim Şəmsiyyə Namazlı "Şərq"ə açıqlamasında bildirib ki, tibbi qeydiyyat üzrə sənədləşdirmənin elektronlaşdırılması çox vacib məsələlərdən biridir:**

"Bütün dünyada səhiyyə sistemi elektron sənədləşdirməyə keçib. Əlbəttə ki, bunun müsbət cəhətləri çoxdur. Əvvəl sənədlər yazılırdı, çox kağız işlənirdi və həkim qeydlər aparmaqdan yorulurdu. Elektron sənədi də həkim qeyd edir. Lakin fərq ondadır ki, hər hansı bir xəstə, ikinci, üçüncü dəfə kontrol müayinələrə gələn zaman artıq həkim arxivdən, tibbi müayinə kağızını axtarmır, kompüter qarşısında həmin məlumatlara daxil olur. Yeni elektron sənədlərdə əvvəlki müayinələrin nəticələrini də asanlıqla görmək mümkündür. Hətta həmin nəticələrlə yeni nəticələri müqayisə etmək daha rahat olur. Həmçinin, kağızda olan yazıların silinmə və çürümə ehtimalı daha çoxdur. Digər tərəfdən, elektron variantını istifadə etdikdə həm kağıza, həm həkimin vaxtına qənaət etmiş oluruq, həm də əlavə işçilərə ehtiyac olmur. Tibbi qeydiyyatın elektron şəkildə aparılmasının, müsbət yanları çoxdur".

**Fidan Həmişəyeva**

**Elan**

Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospektində Quliyev Malik Rzabala oğluna məxsus altı sot torpaq sahəsinin qeydiyyat vərəqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2965



## 10 yaşında milyonçu oldu!

### Bir sinif tapşırığı ilə başladı, indi 2 milyon dollar qazanır

**ABŞ-də yaşayan Tripp Phillips, sinif tapşırığı sayəsində həyatını tamamilə dəyişdirən bir ixtira sayəsində 10 yaşında milyonçu oldu.**

2014-cü ildə müəllimi şagirdlərindən nəsə icad etməyi xahiş etdikdə, Tripp adlı balaca oğlan Leqoları ilə oynayarkən qarşılaşdığı problemin həlli yolunu axtarırdı. Bu fikir onu illər sonra milyonlarla dollar qazanan sahibkara çevirdi.

Sherg.az xəbər verir ki, 10 yaşında milyonçu olan Tripp Phillipsin hekayəsi uğurun yaşla gəlmədiyinin sübutudur. Tripp Phillips bir tapşırıq sayəsində ağlına gələn ixtiranı işləyib hazırladı və daha sonra dünya miqyasında uğur qazandı. Tripp tərəfindən icad edilən yapışdırıcı Leqoların onlara zərər vermədən möhkəm yapışmasına imkan verdi və ılıq su ilə asanlıqla həll edilməsi ilə diqqət çəkdi.

2015-ci ildə Beynəlxalq Torrance Yaradıcılıq Mükafatlarında birinci yeri qazandıqdan sonra o, 40.000 dollar kapitalla məhsulunu satışa çıxardı. Trippin qətiyyəti və görmə qabiliyyəti ona 2017-ci ildə Shark Tank sahibkarlıq şousunda investorların dəstəyini qazandırdı. Ikin olaraq 7000 ədəd satılan bu innovativ məhsul illər ərzində böyük uğur qazanıb. 2022-ci ildə qazancı 1 milyon dollara çatan Tripp 2024-cü ilə qədər gəlirini 2 milyon dollara yüksəldib. Kiçik bir sinif tapşırığı ilə başlayan şey, yaradıcılıq və əzmkarlıqla nəyin əldə oluna biləcəyini göstərir.

**Turan**

## "Survivor 2025" başlayır

### "All Star" yarışmaçılarının adları açıqlandı



**"Survivor 2025 All Star" yarışmasının başlamasına sayılı günlər qalıb.**

Hər il olduğu kimi, "Survivor 2025"də də maraqlı yarışlar olacaq və təcrübəli yarışmaçılar iştirak edəcək. "Şərq" xəbər verir ki, Acun İlıcalı sosial şəbəkədə etdiyi paylaşımla "Survivor 2025 All Star" yarışmaçılarının adlarını açıqlayıb.

*Qeyd edək ki, yarışın ilk bölümü 1 yanvar 2025-ci ildə başlayacaq. "Survivor 2025"-də Zeynep Alkan, Serenay Aktaş, Batuhan Karacakaya, Adem Kılıç, İsmail Balaban, Ayşe Yüksel, Sema Aydemir, Barış Murat Yağcı və Yağmur Banda kimi ismlər iştirak edəcək. Yeni müsabiqə iştirakçıları arasında Tuğba Yeni, Dilşah Kurt, Batuhan Gökgöz, Mövlud Koçak, Göksu Küçükali, Adilhan Numan, Kaan Kazgan və Kübra Avcı kimi isimlərin açıqlanacağı gözlənilir.*

**Turan**

## ABŞ-lı astronavtlar 6 aydır Yerə qayıda bilmirlər



**2024-cü ilin iyun ayında 8 günlük missiya ilə Beynəlxalq Kosmik Stansiyaya (BKS) gedən 2 ABŞ-lı astronavt Yerə qayıda bilmir.**

Azərtac xəbər verir ki, Buç Vilmor və Suni Vİlyamsın geri qayıda bilməməsinə səbəb "Starliner" kosmik gəmisində baş verən nasazlıqdır.

Sentyabrda kosmik gəmi BKS-yə 2 astronavtı çatdırmışdı. Onlar təyinat nöqtəsinə çatdıqdan sonra ABŞ Aerokosmik Agentliyi NASA kosmik gəminin Yerə boş qayıtmasına qərar verib. NASA-nın məlumatına görə, astronavtlar planetimizə böyük ehtimalla martda qayıdacaqlar. Bu təqdirdə onlar 8 gün əvəzinə 9 ay Yerətrafı orbitdə qalmış olacaqlar.

## Adriana Lima 2-ci dəfə ailə qurdu



**Məşhur model Adriana Lima ikinci dəfə ailə qurub.**

Axşam.az xəbər verir ki, model prodüser sevgilisi Andre Lemmerslə nikah masasına əyləşib.

Bu barədə o, sosial media hesabında paylaşım edib. "Rəsmi olaraq xanım Lima Lemmers" deyə, Adriana paylaşımında yazıb.

*Qeyd edək ki, bu, Adriananın ikinci evliliyidir. Onun ilk nikahından iki qız övladı var. Modellə Andrenin isə bir oğlu var.*

## Demetlə Çağatayın serialında o da çəkiləcək



**"Eşref Rüya" serialında rol alacaq daha bir aktyorun kimliyi bəlli olub.**

Axşam.az xəbər verir ki, ekran işində aktyor Necip Memili çəkiləcək. Onun hansı rolu canblandıracağı hələlik bəlli deyil.

*Qeyd edək ki, serialın baş rolları Çağatay Ulusoyla Demet Özdəmirə həvalə olunub. Necip son olaraq "Sandık kokusu" serialında rol alıb.*



# Sirri kələmdədir

### Dözülməz bel ağrısını 30 dəqiqəyə sağaldır





**Hər şeyi sınasanız da, bel ağrınız keçmirsə, xəbərimiz məhz sizin üçündür.**

"Şərq" xəbər verir ki, hərəkəti məhdudlaşdıran bel ağrılarını aradan qaldıran kələm üsulu televiziya və hətta sosial şəbəkələrdə kifayət qədər populyardır. Beləliklə, bel ağrısını aradan qaldırmaq üçün isti kələm üsulu nədir?

Güclü antioksidant təsiri olan kələm iltihab əleyhinə xüsusiyyətlərə malikdir və ürək xəstəliklərindən və qaraciyər yağlanmasından qoruyur. Çox miqdarda C və A vitaminləri ehtiva edərək immunitet sistemini tənzimləyir və orqanları xərçəng hüceyrələrindən qoruyur. Bunlara əlavə olaraq kələmin möcüzəvi faydası var, 30 dəqiqə ərzində ağrıları kəsir.

Hər bir insan həyatının bir nöqtəsində bel ağrısı ilə qarşılaşa bilər. Bel ağrısı gündəlik həyata mənfi təsir edən və həyat keyfiyyətini aşağı salan narahat bir vəziyyət olsa da, bir çoxu sadə səbəblərdən meydana gəlir. Ancaq nə olursa olsun, bütün bel ağrıları ciddi qəbul edilməlidir. Çünki vaxtında müalicə olunmayan bel ağrıları sonradan sizin üçün daha böyük problemlər yarada bilər.

Bel ağrılarının 85-90 faizi mexaniki bel ağrısıdır. Mexaniki bel ağrısı onurğada heç bir problem olmadan arxa əzələlərdən yaranan ağrıdır. Müasir texnologiya ilə fərdlərin fərqinə varmadan buraxdıqları səhvlər bu gün bel ağrısı şikayətlərini artırmaqdadır.

Son zamanlar bel ağrılarına yaxşı gələn və qədim zamanlardan bəri istifadə edilən kələm üsulu yenidən gündəmə gəlib. Kələm yarpaqları qədim zamanlardan təbii ağrıkəsici kimi istifadə edilib. Bel ağrılarına yaxşı təsir edən kələm yarpaqlarından istifadə etmək də çox asandır. Əvvəlcə kələmi qaynar su ilə bir qazanda bir neçə dəqiqə qaynadın.

## Ən təsirli ağrıkəsicidən daha yaxşıdır

Yumşaldılmış yarpaqları süzün, cənətə sarın və ağrılı yerə kompres kimi çəkin. Bunu yarım saat etsəniz, ağrılarınız azalacaq. Kələm yarpaqlarını süddə qaynadıb xəmirə çevirməklə də ağrıdan xilas ola bilərsiniz. Bu qarışığı ağrılı bölgəyə çəkin və 30 dəqiqə buraxın. Bu tətbiqi həftədə üç dəfə etmək sağlam olardı. Əmizdirmə və süddən ayırma zamanı ağrı, yanma hissi və həssaslıq yaşamayan qadın yoxdur. Bu mövzuda təcrübəsi olan bir çox analar ağrıları aradan qaldırmaq üçün kələm yarpaqlarından istifadə etmək barədə danışırlar. Deyirlər ki, ağ kələm ağrıkəsici xüsusiyyətə malikdir və ağrıları maqnit kimi özünə çəkir.

**Turan**



# Qızıl qayda bəlli oldu

### "Əvvəlcə soğan, yoxsa ət qızardılmalıdır?" mübahisəsinə son qoyuldu

**Mətbəxin vazkeçilməz tərkib hissəsi olan soğan və çəkilmiş ət bir çox yemək növü ilə hazırlanır. İnsanları maraqlandıran əsas sual yemək bişirərkən əvvəlcə ətmi, yoxsa soğanı qızartmaqdır.**

Adətən, yeməyi bişirməzdən əvvəl, qızartma prosesi soğan, sarımsaq və tomat istifadə edərək həyata keçirilir. Ancaq çəkilmiş ət ilə yemək hazırlanırsa, hər şey dəyişməyə başlayır. Yemək hazırlayanlar üçün bəzi dəyişməz qızıl qaydalar var.

Qızıl qayda ilk növbədə soğan və ya çəkilmiş ətin qızardılması ilə bağlı mübahisələrə son qoymaqdır.

Mətbəxdən çıxmayanların çoxdan həll etdiyi bu məsələdə hər iki yemək ayrı-ayrılıqda qovrulmalıdır. Soğanları qızardıb sonra ət əlavə etsəniz, ət bişərkən soğanlar yana bilər. Hər halda, ət suyunu buraxacaq və soğanı pis edəcək. Hər ikisini birlikdə bişirmək istəyirsinizsə, cəhd edə bilərsiniz. Bununla belə, ümidverici nəticələr əldə etməmək şansınız daha yüksəkdir.

Birlikdə yemək bişirmək istəyənlər üçün ətə üstünlük verilməlidir. Yaxşıca qızardılmış ətə soğanı əlavə edib çəhrayılaşana qədər qovura bilərsiniz. Eyni şəkildə, mümkünsə, yerkökü və kartof kimi sulu inqrediyentləri ayrıca bişirin.

Yemək hazırlayarkən nəzərə alınmalı olan qızıl qaydalardan biri də tomatla bağlıdır. Tomatı qazana çox erkən əlavə etsəniz, yanmağa başlayacaq. Dad və tekstura əlavə etmək üçün tomatı gec əlavə edin. Tomatı bişirməkdən narahat olmaq lazım deyil, sadəcə qızdırılacaq.

Başqa bir məsləhət kərə yağı ilə bağlıdır. Zeytun yağı və ya günəbaxan yağı qazana əlavə ediləcək ilk qidalardır. Bununla belə, kərə yağı qazana ən son girməlidir. İstiliyə davamlı olmayan bu növ yağ dərhal yanır və qoxusunda, dadında və quruluşunda dəyişikliklər göstərməyə başlayır.

Qovurma zamanı müəyyən bir dad palitrası prosesi müəyyən edir. Ancaq bu ləzzət qatlarını istədiyiniz kimi idarə edə bilərsiniz. Soğanın şirin dadının ön planda olmasını istəyənlər əvvəlcə soğanı qızardırlar, yeməyinin ətli dadını daha çox almaq istəyənlər isə əti yüksək odda qızardırlar.

Başa düşürük ki, qiymə ilə soğan arasında suala heç vaxt bir cavab yoxdur. Bişirdiyiniz yeməkdən və almaq istədiyiniz daddan asılı olaraq dəyişir. Çəkilmiş ətin çölü qızarmağa başlayacaq, xüsusən də əvvəlcə onu bişirmək qərarına gəlsəniz. Beləliklə, daha dərin və ətli ləzzətlər ortaya çıxacaq.

Soğanda olan təbii şəkərlər yüksək temperaturda parçalanmağa başlayacaq. Karamelizə edilmiş soğan hazırlığından da göründüyü kimi, soğanı qovurduqda, çox güman ki, şirin bir dad və qəhvəyi bir görünüş əldə edəcəksiniz. Ancaq mükəmməl dadın arxasınca olanlar bu ləzzətləri ayrı-ayrılıqda qovurmalı və soyutmadan birləşdirməlidir.

**Turan**

## Elmi sensasiya...

### Yeni dünya yanlış yerlərdə axtarılırmış



**Harvard və Edinburq universitetlərinin araşdırmasına görə, planetlər həyatın mövcudluğu üçün yeganə məkan olmaya bilər.**

Alimlərin fikrincə, bəzi ekosistemlər kosmik vakuumun ekstremal şəraitində belə yaşamaq üçün lazımi şəraiti müstəqil şəkildə formalaşdıra bilirlər.

Teleqraf.com xəbər verir ki, bu barədə "Universe Today" məlumat yayıb.

Planetlər ənənəvi olaraq həyat üçün optimal mühit hesab olunurlar, çünki onlar maye suya çıxışı təmin edir, radiasiyadan qoruyur və lazımi temperaturu saxlayır. Amma orqanizmlərin özləri tərəfindən yaradılan bu cür strukturlar planetlərin rolunu öz üzərinə götürə bilərlər. Bəzi mikroorqanizmlər, məsələn, bakteriya və yosunlar mənfi amillərə qarşə özləri üçün qoruyucu maneələr yarada bilərlər. Alimlərin apardığı hesablamalara görə, belə bioloji strukturlar Günəşdən 1-5 astronomik vahid arasında mövcud ola bilər. Bu məsafəyə Yerin orbitindən Yupiterin orbitinə qədər olan dairə daxildir. Elm adamları iddia edirlər ki, belə bioloji strukturlar fotosintez üçün əlverişli daxili şəraiti qoruyub saxlaya bilir, kimyəvi prosesləri tənzimləyir və intensiv ultrabənövşəyi şüalardan qoruyur. Bütün bunlar kainatdakı təkamülün tamamilə bənzərsiz formalar ala biləcəyini ifadə edə bilər. Bu cür ekosistemlər, ehtimal ki, Yer kürəsində məlum olan hər hansı bir şeyə bənzəmir. Yeni fərziyyə doğrudursa, bu, planetimizdən kənarda həyat əlamətlərini harada və necə axtarmaq barədə anlayışımızı xeyli genişləndirəcək.

## Sutkada 8 saat yatmayan insan 20 ilə belə olacaq



**Somnoloqlar gecə yuxusu almayan, sutkada 8 saat yatmayan insanın xarici görünüşü və bədəninin 20 il ərzində necə bərbad hala düşməsinin modelini hazırlayıblar.**

"Medicina" xəbər verir ki, statistika göstərir ki, insanlar yuxuda cəmi 4-5 saat vaxt keçirir, müasir gənclik gecə 2-dən sonra yatağa gedir. Belə gecə istirahətində beyin və bədən bərpa olmağa vaxt tapmır, resursunu itirir. Xarici görünüş və dəri sıradan çıxır. Britaniyalı somnoloq Sofi Bostok gələcək zumer və millenialların 20 il sonra necə görünəcəyini kompüter modeli ilə göstərib. Bu qadındır, Hanna karyeristdir, bu gün o, gecələr saat 2-də yatır və səhər tezdən işə gedir. Yuxu onun üçün vaxt itkisidir. 20 il sonra onun bədəni yuxu çatışmazlığından xroniki stresdən bu vəziyyətə düşəcək. Belə ki, Hannın qaməti əyilib, saçları,dərisi quru, zəifdir, gözlərinin altı torbalanıb, keçəlləşmə yaranıb. İnsanlar çox vaxt gələcəyi görə bilmir, amma əgər siz yatmırsızsa 20 ilə bu görünüşə sahib olacaqsız və bu hamısı deyil: xroniki yuxusuzluq beyinin, ürəyin işini də pozacaq.